DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (344) / İYUN 2020-Cİ İL



...Son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik. Çünki gördük ki, xəstələnənlərin sayı, dinamikası artır və əgər belə gedərsə, bizim də səhiyyə sistemimiz buna davam gətirə bilməz. Ona görə bu həftənin əvvəlindən Bakı şəhərində və bir neçə digər şəhərlərdə daha da sərt karantin rejimi tətbiq edilir. Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək.

Həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar.

**Prezident İlham Əliyev**

*1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışındakı nitqindən*

*24 iyun 2020-ci il*

## DÖVLƏT KOMİTƏSİNDƏ VİDEOKONFRANS FORMATINDA MÜŞAVİRƏ KEÇİRİLİB



Səh. 2

## MİLLİ QURTULUŞDAN BAŞLAYAN BÖYÜK YOL



Səh. 4-5

## QURBAN BAYRAMI
Xeyirxahlıq və mərhəmətin zirvəsi



Səh. 7

## Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi heç vaxt cəmiyyətə xurafat danışmaz və danışmamalıdır



Səh. 8-9

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda mövcud olan mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların, fərqli konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yanaşı yaşamasının bariz nümunəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün möhkəm bünövrə rolunu oynayan etnik-dini rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 iyun 2020-ci il.

# DÖVLƏT KOMİTƏSİNDƏ VİDEOKONFRANS FORMATINDA MÜŞAVİRƏ KEÇİRİLİB



İyunun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ölkədəki mövcud dini duruma həsr olunmuş videokonfrans formatında müşavirə keçirilib. Videokonfransda DQİDK və tabeliyindəki qurumların rəhbərliyi, eləcə də Mərkəzi Aparat və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Müşavirəni açan DQİDK sədri Mübariz Qurbanlı pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən çevik və məqsədyönlü siyasətin, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq atılan qabaqlayıcı addımların önəminə toxunub. Bildirib ki, dövlət başçısının tapşırığına əsasən yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus infeksiyasının yayılmasına qarşı zəruri preventiv işlərin görülməsi, vətəndaşların ölkə Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına qoşularaq bu bəla ilə mübarizədə milli həmrəylik nümayiş etdirməsi, hakimiyyətlə xalq birliyinin mövcud olması, çətin günlərdə insanların mənəvi cəhətdən sıx birləşməsi halları koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır.



DQİDK sədri daha sonra Dövlət Komitəsinin və tabeliyindəki qurumların koronavirus pandemiyası (COVID-19) dövründə sosial sahədə fəaliyyət istiqamətlərinə diqqət çəkib.

Vurğulanıb ki, DQİDK, onun tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) və Azərbaycan İlahiyyat İnstitutunun (AİI) əməkdaşları və könüllüləri xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə bir sıra sosial layihələrə dəstək veriblər. Heydər Əliyev Fondunun “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım məqsədilə Mərkəzi Qan Bankında keçirilən qanvermə aksiyasında iştirak edən qurumların rəhbərliyi və əməkdaşları, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə qoşulublar və könüllü olaraq əməkhaqlarının bir hissəsini Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürüblər. Həmçinin MDTF tərəfindən 140 nəfər tənha yaşlıya, şəhid ailələri və aztəminatlı ailələrə ərzaq yardımı edilib, o cümlədən virusa yoluxmuş xəstələrin müalicəsi ilə məşğul olan bir qrup tibb işçisinə hədiyyələr göndərilib.

Komitə sədri mövcud şəraitdə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda bütün dini ibadətgahlarda dini ayinlərin icrasının dayandırılması və yas mərasimlərinə qoyulan qadağalar barədə dini maarifləndirmə işlərinin aparılması məsələsinə toxunub. Komitə rəhbərliyinin cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində müsahibələri, çağırışları, açıqlamaları yayımlanıb. DQİDK əməkdaşları tərəfindən sosial şəbəkələr vasitəsilə virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə əməl etməyə, eləcə də dini rəhbərləri də bu işdən kənarda qalmamağa, dindarlarımızı Operativ Qərargahın bu barədə tövsiyələrini dinləməyə çağırışlar edilib. Bu istiqamətdə Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə onlayn maarifləndirmə tədbirləri keçirilib.

Həmçinin bildirilib ki, vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılsa da, DQİDK-nın “qaynar xətt”inə, “www.scwra.gov.az” rəsmi saytının “Jivochat” onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılıb, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilib.

AİI-nin rektoru Aqil Şirinov çıxışında bildirib ki, pandemiya dövründə təhsil müəssisəsi öz fəaliyyətini onlayn formatda uğurla davam etdirib. İnstitut ölkədə “Microsoft Teams” platforması üzərindən tədris prosesini həyata keçirən ilklər sırasında olub. AİI-nin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası da platforma üzərindən onlayn formatda şifahi formada keçirilir. Rektor əlavə edib ki, İnstitutun müəllimləri müxtəlif vebinarlarda aktiv iştirak edib, onların müəllifliyi ilə bir neçə elmi dərslik, 36 elmi məqalə və tezislər çap edilib. O, həmçinin İnstitutun xüsusilə xarici tələbələri cəlb etmək məqsədilə təbliğat kampaniyasına başladığını da qeyd edib.

MDTF-nin icraçı direktoru Mehman İsmayılov Fond tərəfindən mövcud dövrdə yardım aksiyaları ilə yanaşı, bir sıra layihələrin həyata keçirildiyi qeyd edib. Bildirib ki, “Qarabağ üçün oxu 3” layihəsi təqdim olunub, “Ziyalı işığında” layihəsinə start verilib, “Azərbaycan naminə” esse-yazı müsabiqəsi yekunlaşdırılıb, tanınmış xeyriyyəçimiz Musa Nağıyev və Aprel şəhidlərimizə həsr olunan “Qəlbi zənginlər”, “Aprel döyüşləri - Böyük zəfərin başlanğıcı” adlı videoçarxlar hazırlanıb, o cümlədən bir sıra maarifləndirici kitabların nəşri həyata keçirilib. Eyni zamanda, Fondun ASAN radio ilə birgə layihəsi olan “Mənəvi dəyərlər” radio-verilişi fəaliyyətini uğurla davam etdirib.

Daha sonra DQİDK-nın Lənkəran, Yevlax və Gəncə bölgəsi üzrə şöbələrinin müdirləri yerlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatına uyğun olaraq, dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi barədə qadağalara riayət edilməsi istiqamətində Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, qazılar və imamlarla birgə vətəndaşlar arasında aparılan maarifləndirmə prosesi barədə danışıblar.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının 19 ilinin tamam olması münasibətilə Komitə əməkdaşlarını təbrik edən Mübariz Qurbanlı fəaliyyətində fərqlənən bir qrup əməkdaşın fəxri diploma layiq görüldüyünü diqqətə çatdırıb, hər kəsi dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində daha böyük səylə çalışmağa, multikultural və tolerant ənənələrin təbliği işinə daha böyük töhfələr verməyə səsləyib.

Sonda müzakirə olunan məsələlərlə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

## DÖVLƏT QULLUQÇULARI TƏLTİF EDİLİB

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb. Dövlət başçısının Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində dini təhsil sektorunun müdiri Tural Əliyev və DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev də dövlət qulluğunda göstərdikləri səmərəli fəaliyyətlərinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif ediliblər.

## KOMİTƏ SƏDRİ: "YAS MƏRASİMLƏRİ BU QAYDALAR ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMƏLİDİR"

Rayonlarda vətəndaşlar koronavirusun yayılması təhlükəsinə diqqət yetirməyərək yas mərasimlərində kütləvi toplaşma hallarına yol veriblər.

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, bununla bağlı məlumatlar toplanılıb: "Biz bununla bağlı məlumatları toplamışıq, Qafqaz Müsəlmanları İdarəsi bölgələrdə olan bütün səlahiyyətli nümayəndələrini xəbərdar edib ki, yerlərdə dəfn mərasimlərini imamlar idarə etsinlər, yəni imamlar vəfat etmiş insanın yaxınları ilə birlikdə dəfnin islami qaydalara uyğun təşkilində iştirak edib bütün dini ayinləri orada icra etsinlər, lakin sonradan ehsan vermək məqsədilə kütləvi toplaşmalar olacaqsa, həmin toplaşmanın məqsədəuyğun olmadığı vətəndaşların diqqətinə çatdırılsın və din xadimləri heç bir halda həmin toplantılarda iştirak etməsin.

Dövlət Komitəsinin yerlərdə olan əməkdaşları da bu istiqamətdə izahat işini gücləndiriblər. Biz adət-ənənələrimizi qoruyuruq, lakin bu virusla bağlı kütləvi toplaşmaların insanlar üçün nə qədər böyük təhlükə törətdiyini başa düşərək yas mərasimləri məhdudlaşdırılmalı, ehsan mərasimləri dayandırılmalıdır və bu cür toplaşmalara yol verilməməlidir. Biz bununla bağlı tövsiyələr vermişik və yerli qurumlar da bu halların baş verməməsi üçün əllərindən gələni edirlər. Bir daha vətəndaşlarımıza çağırış edirik ki, bu cür mərasimlərə yol verməsinlər. Virus təhlükəsi davam edir və biz Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün təlimatlarını yerinə yetirməliyik".

## Mübariz Qurbanlı: "ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanda dini azadlığa obyektiv yanaşma öz əksini tapmayıb"

ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyətinə dair 2019-cu il üçün illik hesabatında Azərbaycanla bağlı hissədə ölkəmizdəki din sahəsində müsbət rəylərlə bərabər, bizim razılaşmadığımız və obyektivlikdən uzaq olan, həmçinin əvvəlki illərə aid və artıq həllini tapmış bəzi fikirlər özünə yer tapıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu barədə açıqlama verib.

M.Qurbanlı bildirib ki, Azərbaycan dünyəvi dövlətdir və Konstitusiyada dini etiqad azadlığı, vicdan azadlığı tam şəkildə təmin edilib: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan siyasət sayəsində Azərbaycan dini etiqad azadlığı baxımından dünyada nümunəvi ölkələr sırasındadır. Təsadüfi deyil ki, Azərbaycanda "Multikulturalizm İli", "İslam Həmrəyliyi İli" elan edilib. Çoxlu sayda tədbirlər həyata keçirilib. Həmçinin Azərbaycanda din sahəsində aparılan siyasət ölkədə dini konfessiyalar arasında harmoniyaya, qarşılıqlı anlaşmaya, tolerant, multikultural mühitə çox böyük imkan yaradıb.

Ona görə də ABŞ Dövlət Departamentinin hesabatını diqqətlə nəzərdən keçirəndə orada olan bəzi məqamlar var ki, həmin məqamların hər biri ilə əlaqədar fikirlər obyektiv deyildir. Misal üçün, həmin hesabatda Azərbaycanda dini icmaların qeydiyyatı məsələsinə toxunulur. Nəzərinizə çatdırım ki, qeydiyyat məsələsi ilə bağlı ölkəmizin qanunvericiliyində olan imkanlar ən mütərəqqi və nümunəvidir. Yəni Azərbaycanda 50 nəfərdən ibarət vətəndaşlar bir araya gələrək dini icmanı qeydiyyatdan keçirə bilir. Baxmayaraq ki, bəzi Avropa ölkələrində bu rəqəm daha yüksəkdir. Bu gün statistikaya baxsaq, Azərbaycanda 942 dini qurum qeydiyyatdan keçib. Konfessional baxımdan onların 907-si İslam, 35-i isə qeyri-islam (xristian – 24; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür və bu sahədə heç bir məhdudiyyət yoxdur. Çox təəssüf ki, həmin hesabatda bununla bağlı yanlış mövqe vardır. Və yaxud hesabatda "Yehova şahidləri" ilə bağlı 3-4 il bundan qabaqkı məsələlər vardır ki, buna məhkəmədə baxılıb. İndi o məsələni hesabata təkrar daxil ediblər. Halbuki, "Yehova şahidləri" ilə bağlı ölkəmizdə hansısa bir problem yoxdur. "Yehova şahidləri"nin mərkəzi Azərbaycanda bu qurumla bağlı atılan addıma görə ölkəmizə dəfələrlə təşəkkür edib. Eyni zamanda, digər qeyri-müsəlman icmaları vardır ki, bu icmaların qeydiyyatında da, fəaliyyətində də hər hansı bir məhdudiyyətə yol verilməyib.

Eyni zamanda, hesabatda Gəncədə baş vermiş məlum hadisələrlə əlaqədar məqamlar vardır ki, onun dini etiqad azadlığına aidiyyəti yoxdur. Və bu hadisələrin iştirakçıları din adından sui-istifadə edən ekstremist-radikal qruplar olub. Bu məsələ ilə əlaqədar məhkəmə araşdırması aparılıb, qərar qəbul olunub, cinayət hadisəsi baş verib və cəzalandırılanlar var. Hesabatda bu hadisəni dini məsələ ilə əlaqələndirməyə cəhd ediblər və bu tamamilə qeyri-düzgün yanaşmadır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, istər Nardaran, istərsə də Gəncə hadisələrində din adından sui-istifadə edilərək, ekstremist və terror əməlləri törədilmiş, polis əməkdaşlarına xəsarətlər yetirilmiş və bir neçə polis əməkdaşı qətl olunmuşdur. Hər iki hadisə ölkəmizin ictimai-siyasi sabitliyinə, tolerantlıq mühitinə, dövlət-din münasibətlərinə, hüquqi-demokratik əsaslarına və dövlətin konstitusiya quruluşuna qarşı yönəlmiş pozuculuq fəaliyyətini din pərdəsi altında həyata keçirmək cəhdlərindən başqa şey deyildir. Beləliklə, nəzərə alınmalıdır ki, bu və ya digər oxşar hadisələrə görə cinayət məsuliyyətinə cəlb edilən şəxslərin heç biri dini fəaliyyətinə görə həbs edilməmişdir.

Qeyd etdiyim kimi, hesabatda Azərbaycanda görülmüş işlər, müsbət hadisələrin qeyd edilməsi ilə yanaşı, yanlış fikirlər, bizim qəbul edə bilməyəcəyimiz qeyri-obyektiv tezislər var. Bununla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi müvafiq sənəd hazırlayaraq öz mövqeyini bildirəcək".

Komitə sədri bildirib ki, Azərbaycan demokratik ölkədir və Azərbaycanda mövcud olan vətəndaşların hüquq və azadlıqları, demokratik azadlıqlar kiməsə görə təmin edilmir: "Bu, Azərbaycan xalqının seçimidir, Azərbaycan Konstitusiyasında təsbit olunmuş müddəalardır. Ona görə də biz öz siyasətimizi hansısa ölkəyə, hansısa quruma görə müəyyən etmirik. Bu bizim Prezidentimizin apardığı siyasətdir və ötən il Azərbaycanda Dünya dini liderlərinin ikinci sammitində qəbul edilən sənəddə də Azərbaycanın dini tolerantlıq baxımından ən nümunəvi ölkə olması öz əksini tapıb. Təəssüf ki, ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanda dini azadlığa, vicdan azadlığına, həyata keçirilən siyasətə obyektiv yanaşma öz əksini tapmayıb".

## "Mədəniyyətlərarası və dinlərarası dialoqda dini kimliyin rolu: Azərbaycan və Belçika modeli" mövzusunda videokonfrans

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Brüsseldəki Protestant İlahiyyat və Dini Araşdırmalar Fakültəsi (FUTP) "Mədəniyyətlərarası və dinlərarası dialoqda dini kimliyin rolu: Azərbaycan və Belçika modeli haqqında" mövzusunda videokonfrans təşkil etmişdir. Hər iki ali təhsil müəssisəsindən olan alimlər dini radikallaşmaya qarşı mübarizə yolu kimi mədəniyyətlərarası və dinlərarası dialoq çərçivəsində dini kimliyin möhkəmləndirilməsi sahəsində indiyədək aparılmış araşdırma metodları haqqında səmərəli fikir mübadiləsi yürütmüşlər.



Bu kontekstdə Brüsseldəki Protestant İlahiyyat fakültəsinin dekanı prof. Yohan Temmerman dini radikallaşma sahəsindəki araşdırmalara əsaslanan FUTP-nin təhsil proqramı çərçivəsində müxtəlif dinlərarası və mədəniyyətlərarası dialoq təcrübələri haqqında fikir mübadiləsi aparmaq imkanını təqdir etdiyini nəzərə çatdırmışdır.

Sözügedən mövzuda Azərbaycan İlahiyyat İnstitutunun rektoru i.f.d. Aqil Şirinov Azərbaycanda dini tolerantlığın sosial, tarixi və teoloji əsaslarını vurğulamış, dinlərarası və mədəniyyətlərarası dialoq haqqında İslam ilahiyyat kontekstində araşdırma üsullarını izah etmişdir.

Konfransda müxtəlif mədəniyyətlərarası modellərin hərtərəfli araşdırılması üçün vahid platformanın yaradılması, həmçinin dinlərarası və mədəniyyətlərarası kontekstdə təhsilin daha da zənginləşdirilməsinə töhfə verəcək təcrübələrin sistemləşdirilməsi müzakirə olunmuşdur.

Videokonfransın təşkilində məqsəd çoxyönlü müasir qlobal etika konsepsiyasında dini kimliyin möhkəmləndirilməsidir. Din insanları daha sədaqətli və dinc hala gətirən dinamikliyi özündə ehtiva edir. Son on ildə elmi fikir mübadiləsi zamanı dini baxımdan yaxşı niyyətlə başlanan görüşlərin əks-nəticə ilə sonlandığı aydın şəkildə məlum olmuşdur. Sonrakı elmi fikir mübadiləsinin məqsədi dini nöqteyi-nəzərdən bu radikal görüşlərin mənbəyini müəyyənləşdirməkdir.

Görüş iştirakçıları yenidən görüş təşkil edərək, mədəniyyətlərarası və dinlərarası dialoqda dini kimliyin rolu barədə səmərəli fikir mübadiləsini davam etdirmək arzularını ifadə etmişlər.

# MİLLİ QURTULUŞDAN BAŞLAYAN BÖYÜK YOL

15 İyun Milli Qurtuluş Günü xalqımızın tarixinin parlaq səhifələrindən birini təşkil edir. Bu bayram şərəfli və mənalı ömür yolunu müstəqil Azərbaycan dövlətinin qurulmasına, onun dünya ölkələri arasında layiqli yer tutmasına, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşamasına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Milli Qurtuluşa nail olunması prosesi respublikamızın sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni böhranla və vətəndaş müharibəsi təhlükəsi ilə üzləşməsi kimi ağır sınaqlardan keçmişdir.

Azərbaycanın dünyada və keçmiş SSRİ-də gedən proseslərin nəticəsində yenidən dövlət müstəqilliyi əldə etməsinin ilk illərində hakimiyyətdə olan qüvvələr xalqımızın taleyüklü problemlərinin həllinə biganə yanaşmış, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün vahid komandanlığa tabe olan milli ordu yaratmaq əvəzinə, qanunsuz silahlı dəstələrin fəaliyyətinə rəvac vermiş, cəmiyyəti xaos və qarşıdurmalarla üz-üzə qoymuşdur. Xüsusilə, qanunsuz yolla hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün cəmiyyəti böhran girdabına sürükləməsi, Ermənistanın Azərbaycana hərbi təcavüzünün qarşısının alınmasında acizlik göstərməsi, respublikanın şimal və cənub bölgələrində etnik separatizmin güclənməsi xalqımızın kəskin narazılığına səbəb oldu. Əhalinin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu həmin dövrdə Naxçıvan Ali Məclisinin Sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdilər. 1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat cütlüyü həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı.



Parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu hadisə xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev Ali Sovetin Sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti olarkən müstəqil dövlət quruculuğu yolunda uzaqgörən və qətiyyətli siyasət aparmağa başladı.

**Sosial-iqtisadi inkişaf, müstəqil dövlətin hüquqi-siyasi əsaslarının formalaşdırılması, ordu quruculuğu**

Heydər Əliyev dövlət müstəqilliyinə qarşı yönəlmiş daxili və xarici təhdidlərin, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün ilk növbədə ictimai-siyasi sabitliyin bərqərar olması istiqamətində mühüm addımlar atdı. Bu məqsədlə Azərbaycanın suverenliyinə və ərazi quruluşuna qarşı yönəlmiş təxribatçı hərəkətlərin, dövlət çevrilişi cəhdlərinin, etnik-separatizmin (Qondarma "Talış-Muğan Respublikası", "Sadval") qarşısı alındı, vətəndaş həmrəyliyinin yaradılması müstəqil dövlət quruculuğunda tarixi uğurların əldə olunmasında böyük əhəmiyyət daşıdı.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və ali sənəddə xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğu, dövlətin demokratik, hüquqi və dünyəvi xarakter daşıdığı kimi əsas prinsiplər öz əksini tapdı. Hüquqi dövlət quruculuğu sahəsində islahatların aparılması qanunun aliliyi, insan hüquq və azadlıqlarının təmin olunması, eyni zamanda vətəndaşların müstəqil dövlətçilik ətrafında birləşməsi üçün geniş imkanlar yaratdı. Müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi demokratik siyasi sistemin və bazar iqtisadiyyatının inkişafı sahəsində mühüm işlər görüldü. İctimai-siyasi sabitliyin bərqərar olması siyasi, iqtisadi, milli, dini münasibətlərin demokratik prinsiplər əsasında formalaşması üçün əlverişli şərait yaratdı. Demokratiyanın inkişafında söz və mətbuat azadlığının oynadığı rola mühüm əhəmiyyət verildi, onun təmin olunması üçün ardıcıl siyasət aparıldı. Bunun ən parlaq nümunəsi Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə Azərbaycanda KİV üzərindən dövlət senzurasının götürülməsi oldu.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bazar iqtisadiyyatı münasibətlərinə keçidin səmərəli mexanizmini formalaşdırmaq üçün dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələri nəzərə alınaraq strateji vəzifələr müəyyən olundu. 1993-1997-ci illərdə sosial-iqtisadi böhran aradan qaldırıldı, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyanın əsasları yaradıldı. 1998-2003-cü illərdə isə iqtisadiyyatın müxtəlif sahələrini nəzərdə tutan dövlət proqramlarının həyata keçirilməsi ilə bazar iqtisadiyyatının əsasları möhkəmləndi, onun davamlı inkişafına nail olundu və dünya iqtisadiyyatına inteqrasiyası sürətləndi. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq respublikamızın aqrar sektorunda islahatların aparılması ilə torpaq əsl sahibinə - kəndliyə qaytarıldı.

Heydər Əliyev ölkəmizin təhlükəsizliyini və müdafiəsini təmin etmək qabiliyyətinə malik olan Azərbaycan Ordusunun formalaşdırılması yönündə fəal siyasət apardı. Qoşun hissələri keçmiş hakimiyyətlərdən miras qalmış təxribatçı-siyasi ünsürlərdən təmizləndi və möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan Milli Ordunun yaradılması xalqımızda böyük qurur hissi doğurdu. Ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, onların ixtisasının artırılması, hərbi iş sahəsində elmi tədqiqatların aparılması üçün Heydər Əliyevin 1999-cu il 20 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı.

**Milli-mənəvi dəyərlərin qorunub saxlanılması və azərbaycançılıq ideyası**

Ulu Öndər Heydər Əliyevin apardığı siyasətin nəticəsində milli-mənəvi dəyərlərin, elm, təhsil, mədəniyyət və incəsənətin inkişafında dönüş mərhələsi başladı. Milli ideologiya səviyyəsinə qaldırılan azərbaycançılıq məfkurəsi ölkəmizdəki müxtəlif xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında tarixi-siyasi əhəmiyyət daşıdı. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini dərindən öyrənməsi üçün əlverişli şərait yarandı. Heydər Əliyev milli-mənəvi dəyərlərin (adət-ənənələr, din, dil, mədəniyyət və s.) azərbaycançılıq məfkurəsi əsasında inkişafına nail olmuşdur.

Heydər Əliyevin apardığı siyasət etnik mənsubiyyəti, dini baxışları və adət-ənənələrindən asılı olmayaraq bütün ölkə vətəndaşları tərəfindən dəstəkləndi. Demokratik şərait müxtəlif dini dəyərlərin bir-biri ilə yanaşı mövcud olması, vicdan azadlığı və dini etiqad sərbəstliyinin ictimai həyatda özünə mühüm yer tutmasını təmin etdi. Azərbaycandakı bütün dini konfessiyalar və azsaylı xalqlar multikulturalizmin inkişafı, dostluq və humanizm prinsiplərinin öz təsdiqini tapması, vətəndaş həmrəyliyinin möhkəmlənməsində və ictimai-siyasi sabitliyin təmin olunmasında yaxından iştirak etməyə başladılar. Müxtəlif tarixi dövrlərdə daxili və xarici siyasi dairələrin Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş cinayətkar əməllərinə respublikamızda yaşayan azsaylı xalqların, dini konfessiyaların nümayəndələri kəskin etirazlarını bildirdilər. Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, müxtəlif dini etiqadları təmsil edən dini qurumlar arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsi, dini radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının qarşısının alınması məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il 21 iyun tarixli fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Ulu Öndərin hakimiyyəti dövründə xeyli sayda qədim dini ocaqlar və müqəddəs yerlər təmir-bərpa edilmiş, yaxud yenidən qurulmuşdur.

**Milli maraqları ifadə edən xarici siyasət, nəqliyyat-enerji təhlükəsizliyinin təmin olunması**

Heydər Əliyev Azərbaycanın xarici siyasətini beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında qurmuşdur. Xarici siyasət aparılarkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alınmışdır. Regional və beynəlxalq təşkilatlarla əlaqələr möhkəmlənmiş və xalqımızın mənafeyi naminə onların imkanlarından istifadə olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər nüfuzlu qurumlarla Azərbaycanın əlaqələri möhkəmlənmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq Heydər Əliyevin apardığı xarici siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ümummilli Lider BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etməsinə nail olmuş, münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatların tribunalarından səsləndirmiş, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırmışdır.

Heydər Əliyev Azərbaycanın zəngin təbii sərvətlərindən dövlət müstəqilliyinin möhkəmlənməsi üçün istifadə olunması və əhalinin sosial rifah halının yüksəlməsi məqsədilə yeni neft strategiyasının əsasını qoymuşdur. 1994-cü il sentyabrın 20-də Azərbaycanla dünyanın nüfuzlu neft şirkətləri arasında "Əsrin müqaviləsi"nin imzalanması xalqımızın təbii sərvətləri üzərində həqiqi sahiblik hüququnun təmin edilməsində böyük tarixi hadisə oldu. Müqavilə çərçivəsində regional və beynəlxalq əhəmiyyət daşıyan enerji layihələrinin həyata keçirilməsinə başlanması Azərbaycanın dünya birliyində nüfuzunu artırdı. 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərləri istifadəyə verildi, 1999-cu ildə Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Saziş imzalandı. "Əsrin müqaviləsi" ölkəmizlə Qərb dövlətləri və beynəlxalq maliyyə qurumları arasındakı münasibətləri möhkəmləndirdi.

Azərbaycan beynəlxalq əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri ilə bağlı layihələrə fəal şəkildə qoşulmuşdur. Məsələn, Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən və tarixi İpək yolunun bərpasını nəzərdə tutan "TRASEKA" layihəsinin reallaşmasında ölkəmiz yaxından iştirak etmişdir. Heydər Əliyevin təşəbbüsü, Avropa Birliyi Komissiyası və "TRASEKA" proqramının iştirakçısı olan ölkələrin birgə qərarı ilə 1998-ci il sentyabrın 8-9-da Bakıda tarixi İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir. 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirak etdiyi tədbirdə "Avropa-Qafqaz-Asiya nəqliyyat

davamı səh. 4

# MİLLİ QURTULUŞDAN BAŞLAYAN BÖYÜK YOL

əvvəli səh. 4

dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas Saziş" imzalanmışdır.

**Siyasi kursda varisliyin davam etdirilməsi**

Milli Qurtuluş Günündən başlayan yolu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir və onun apardığı siyasətin nəticəsində ölkəmiz keçid dövrünü başa vurub, hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı sahəsində mühüm addımlar atılır. Prezident İlham Əliyevin siyasəti xalqımızın maraqlarını özündə əks etdirərək Azərbaycanın siyasi-iqtisadi, mədəni potensialına əsaslanır və müasir dövrün çağırışlarına cavab verir. Dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın inkişafı, sosial, humanitar və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi Azərbaycanın dünya birliyində nüfuzunu artırır. Xalqımızın milli-mənəvi və multikultural dəyərlərinin, müstəqil dövlətçilik tarixinin və görkəmli şəxsiyyətlərin yaradıcılığının təbliği, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, idman və digər sahələrin inkişafı üçün Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycanda 2007-ci il "Gənclər ili", 2009-cu il "Uşaq ili", 2010-cu il "Ekologiya ili, 2011-ci il "Turizm ili", 2012-ci il "İdman ili", 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili", 2014-cü il "Sənaye ili", 2015-ci il "Kənd təsərrüfatı ili", 2016-cı il "Multikulturalizm ili", 2017-ci il "İslam Həmrəyliyi ili", 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili", 2019-cu il "Nəsimi ili", 2020-ci il isə "Könüllülər ili" elan edilmişdir.

**Əhalinin rifahına xidmət edən sosial-iqtisadi və elmi inkişaf**

Neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər və qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində görülən işlər xalqımızın sosial rifahının yüksəlməsinə mühüm təsir göstərir. Regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan çoxsaylı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində infrastruktur təminatı yaxşılaşır, sahibkarlığın inkişafına təkan verilir, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparılması dünyanın bir çox nüfuzlu iqtisadi-maliyyə mərkəzlərinin hesabatlarında da öz əksini tapır. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu, "Moodys", "Fitch Raitings", "Standard and Poors" kimi qurumlar Azərbaycanın dünyada ən yüksək iqtisadi artıma malik olduğunu qeyd etmişlər. Məsələn, Davos Dünya İqtisadi Forumunun 2017-ci ilə dair hesabatına görə, ölkəmizin iqtisadiyyatı rəqabət qabiliyyəti parametri üzrə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişaf göstəricisi üzrə 26-cı yeri tutmuşdur. Forumun 2017-ci ilə dair "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 dövlət arasında 3-cü yerə yüksəlmişdir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısında yer tutaraq, 2018-ci ildə dünyanın ən çox islahat aparan ölkəsi elan edilmişdir.

Sosial-iqtisadi inkişafa uyğun olaraq, elmi fəaliyyət sahəsində də ardıcıl dövlət siyasəti həyata keçirilir. Ölkəmizin elmi prioritetləri dünya elminin inkişaf istiqamətləri ilə uyğunlaşdırılır. Prezident İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirməliyik!" çağırışı ilə təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidin təmin olunması ölkəmizin strateji hədəflərindən biridir. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə 2-ci - Yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ilin sentyabrında isə "Azerspace-2" orbitə çıxarılmışdır. Prezident İlham Əliyev ilk peykin orbitə buraxılmasını müstəqillik dövründə Azərbaycanın ən böyük uğurlarından biri kimi qiymətləndirmişdir.

**Vətəndaş cəmiyyətinin və multikultural dəyərlərin inkişafı**

Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının (siyasi partiyalar, QHT-lər, KİV) ictimai həyatda rolu artır, onların irəli sürdükləri əsaslandırılmış təklif və tövsiyələrə dövlət orqanları diqqətlə yanaşırlar. Hazırda Azərbaycanda 59 siyasi partiya, 4 minə yaxın qeyri-hökumət təşkilatı dövlət qeydiyyatından keçmişdir. Ölkə üzrə KİV-in ümumi sayı 5 mindən çoxdur. Siyasi partiyalar, QHT-lər və KİV prezident, parlament və bələdiyyə seçkilərində, ümummilli əhəmiyyət daşıyan məsələlərin müzakirəsində yaxından iştirak edir, ictimai rəyin formalaşmasına mühüm təsir göstərirlər.

Azərbaycanda yaşayan azsaylı xalqların, dini konfessiyaların hüquqlarının təmin olunması, onların dini-mədəni dəyərlərinin qorunub saxlanılması dövlət siyasətinin əsas məqsədlərindən biridir. Ölkəmizdə 941 dini qurum qeydiyyatdan keçmişdir ki, onların 906-sı islam, 35-i isə qeyri-islam təmayüllüdür. Respublika ərazisində 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir. Azərbaycandakı multikultural mühit müxtəlif dinlərin və mədəniyyətlərin yanaşı yaşaması, ictimai-siyasi sabitliyin möhkəmlənməsi, dövlətin bütün sahələrini əhatə edən davamlı inkişafın təmin olunması üçün mühüm əhəmiyyət daşıyır. Müxtəlif millətlər və xalqlar arasındakı qarşılıqlı inam, hörmət hissi vətəndaş həmrəyliyini möhkəmləndirir. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir ki, bu da dövlət siyasətində tolerantlığa böyük diqqət yetirildiyinin bariz sübutudur. Dini konfessiyaların fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması, mənəvi dəyərlərin qorunması və inkişafı, bu sahəyə dövlət dəstəyinin təmin olunması məqsədilə Prezident İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsində onun adını daşıyan fondun xidmətləri xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə sosial-iqtisadi və mədəni-humanitar sahələrin inkişafında yaxından iştirak edir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər, idman, ətraf mühitin qorunması və informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində həyata keçirilən layihələri xalqımız böyük rəğbət hissi ilə qarşılayır. Fond milli birliyin möhkəmlənməsində, vətəndaş cəmiyyətinin inkişafında, mənəvi-əxlaqi dəyərlərin qorunmasında mühüm işlər görür. Azərbaycanın qeyri-maddi mədəniyyət nümunələrinin UNESKO-nun siyahısına daxil olunmasında Heydər Əliyev Fondunun göstərdiyi fəaliyyət tarixi əhəmiyyət daşıyır. Milli-mənəvi dəyərlərin dünyada təbliği sahəsində fondun reallaşdırdığı layihələr xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin öz adlarına çıxması kimi mənfur niyyətlərinin qarşısını alır. Mədəniyyətlərarası dialoqun və tolerant ənənələrin inkişaf etdirilməsi Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biridir. Ötən illər ərzində fondun xətti ilə ölkəmizdəki məscidlərdə, o cümlədən müxtəlif dinlərə sitayiş edən insanların getdikləri ziyarətgahlarda təmir-bərpa işləri aparılmış, azsaylı xalqların nümayəndələri üçün təhsil, mədəniyyət mərkəzləri yaradılmışdır. Fondun layihələri yalnız Azərbaycanla məhdudlaşmamış, xarici dövlətləri də əhatə etmişdir. Belə ki, fond tərəfindən Fransa, Vatikan, İtaliya, Bolqarıstan və s. dövlətlərdə qədim dini, mədəni abidələrdə təmir-bərpa işləri aparılmışdır.

**Milli maraqlara və praqmatizmə əsaslanan xarici siyasət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi**

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının sayəsində mümkün olmuşdur. "Eurovision - 2012", I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Bakı Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşü kimi mötəbər tədbirlərin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artırır.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün həm Ermənistan prezidentləri və baş naziri ilə danışıqlarda, həm də BMT Baş Məclisinin sessiyalarında, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların tədbirlərində çıxışı zamanı münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin Ermənistanın beynəlxalq hüquqi prinsiplərə zidd olaraq yerinə yetirmədiyini bildirmişdir. BMT Baş Assambleyasının 2006-cı və 2008-ci illərdə keçirilmiş sessiyalarında qəbul olunmuş sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması faktı pislənilmiş, BMT Təhlükəsizik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı xarici siyasətlə paralel olaraq Milli Ordumuzun maddi-texniki bazasını gücləndirir. Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biridir. 2003-cü ildən indiyə qədər ölkəmizin hərbi xərcləri 15 dəfə artmışdır. Son illər 20 hərbi sənaye kompleksi müəssisəsi tikilib istifadəyə verilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir. 2018-ci il iyunun 26-da Bakı şəhərinin "Azadlıq meydanı"nda Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilmiş təntənəli hərbi paradda 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş etdirildi. Nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə, Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yerdədir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını alıb, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. Bütün bunlar Azərbaycan Ordusunun gücünü dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana hərbi təcavüzü və onun nəticələri ilə bağlı həqiqətləri mütəmadi şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Buna misal olaraq, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən çıxışlarını göstərmək olar.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsi sübut edir ki, Azərbaycanın inkişafı və dünya birliyində layiqli yer tutması Milli Qurtuluş Günündən başlayır. Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə və ümummilli maraqlara əsaslanaraq, ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə misilsiz tarixi fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan qüdrətli və hərtərəfli inkişaf edən dövlət kimi Milli Qurtuluşdan başlayan yolu uğurla davam etdirir.

**Mübariz QURBANLI,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,*
*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini*
*"Azərbaycan" qəzeti*

# Xalqa xidmət böyük şərəfdir!

*"Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır"*
**Prezident İlham Əliyev**



İctimai həyatın müxtəlif sahələrində dövlət siyasətini həyata keçirən, vətəndaşların və cəmiyyətin xidmətində olan dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsi, ilk növbədə, bu orqanlarda çalışan dövlət qulluqçularının yüksək peşəkarlığından və vəzifə borcunu məsuliyyətlə yerinə yetirməsindən asılıdır. 1991-ci ildə ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə bir çox sahələrdə, o cümlədən dövlət qulluğu sahəsində islahatların aparılmasına ciddi zərurət yarandı. 1995-ci ilin 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkə vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ və dövlət orqanlarında qulluq etmək imkanına malik olması təsbit edildi və "Dövlət qulluğu" anlayışı da Azərbaycan müstəqillik əldə etdikdən sonra, ilk dəfə Konstitusiyamızda yerini tutdu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında yaradılmış Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının fəaliyyəti nəticəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi və 2001-ci il 1 sentyabr tarixində qüvvəyə mindi, bununla da Azərbaycanda dövlət qulluğu islahatlarının təməli qoyulmuş oldu. Dövlət qulluğu sahəsində həyata keçirilmiş mühüm islahatlar sayəsində Azərbaycan Respublikasında özünəməxsus dövlət qulluğu sistemi formalaşdı və bu sistemdə qabaqcıl beynəlxalq təcrübədən istifadə edildi.

Azərbaycanda çevik dövlət qulluğu sisteminin formalaşması, dövlət idarəetməsində ölkə vətəndaşlarının iştirak etmək hüququnun verilməsində Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri var. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki islahatlarının vacib bir istiqaməti də müstəqil dövlətin qarşıya qoyduğu vəzifələri həyata keçirə biləcək kadrların hazırlanması təşkil edirdi. Onun hakimiyyətinin həm birinci, həm də ikinci mərhələsində bu sahəyə xüsusi diqqət yetirilib. Elə Azərbaycanda prinsip etibarilə yeni, zamanın çağırışlarına və beynəlxalq standartlara cavab verən dövlət qulluğu sistemi və onun hüquqi bazasının formalaşdırılması da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin uzaqgörən uğurlu siyasəti və qətiyyətli iradəsi ilə onilliklər üçün ölkəmizin inkişaf strategiyası müəyyən edilib. Bu inkişaf strategiyasının mühüm, əhəmiyyətli hissəsini məhz hüquqi dövlət quruculuğu təşkil edib. Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasında dövlət və hakimiyyət münasibətlərinin hüquq bazası demokratik, dünyəvi dövlətçilik və hakimiyyətin bölünməsi prinsipləri əsasında milli dövlətçilik ənənələrinə və beynəlxalq təcrübəyə uyğun yaradılıb. Heydər Əliyev dövlət quruculuğu prosesinin ilk illərindən dövlət tərəfindən vətəndaşlara göstərilən xidmətlərin etik davranış qaydalarına ciddi əməl edilməklə, bürokratik əngəllərə yol verməden, şəffaflıq təmin edilməklə həyata keçirilməsini qarşıda əsas vəzifə kimi qoyub, dövlət qulluğunun müasir konsepsiyasını formalaşdırıb. Məhz Ulu Öndərin sayəsində müstəqillik dövründə də milli kadrların dövlət orqanlarına yerləşdirilməsinə, gənclərin dövlət orqanlarında daha çox təmsil olunmasına xüsusi önəm verilib. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etməyə başladığı dövrdən dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, çevik idarəetmə strukturunun yaradılması, icra hakimiyyəti orqanlarının funksional vəzifələrinin müəyyən edilməsi məqsədilə əsaslı islahatlar aparılıb. Bütün sahələrdə olduğu kimi dövlət qulluğunun da müasir tələblər səviyyəsində təşkili və təkmilləşdirilməsi daim diqqət mərkəzində duran məsələlərdən olub.

Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələri və dövlət qulluqçusu üçün olduqca zəruri olan keyfiyyətləri Ulu Öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən bu gün yaşadılır və böyük bacarıqla davam etdirilir. Uğurlu dövlət quruculuğu siyasətinin ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizdə dövlət idarəetmə sisteminin, o cümlədən dövlət qulluğunun təkmilləşdirilməsi üçün mühüm işlər görülür. "Biz xalq üçün çalışırıq, xalq üçün yaşayırıq və işləyirik" prinsipini əsas fəaliyyət kredosu kimi qəbul edən, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu öz praktiki işləri ilə sübut edən cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illərdə qazandığı nailiyyətlər bütün dünyanı heyrətə gətirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə dövlət qulluğu sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılmasına diqqət artırılmışdır. Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yeni düşüncəli, savadlı, işgüzar, bacarıqlı, yüksək təşkilatçılıq və informasiyadan istifadə etmək qabiliyyətinə malik olan kadrların hazırlanmasına, onların cəsarətlə seçilib irəli çəkilməsinə böyük zəmin yaradır.

Müasir cəmiyyətimizdə dövlət qulluğu dövlət siyasətinin, onun məqsəd və funksiyalarının reallaşmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əsas mexanizm kimi çıxış edir. Dövlət qulluğu çoxtərəfli olmaqla dövlət hakimiyyətinin idarəetmə təsirini göstərən və dövlət idarəetməsinin daxili mahiyyətini açan geniş anlayışdır. Ölkə Prezidenti öz müdrik siyasəti ilə ölkəmizdə dövlət qulluğunun daim təkmilləşdirilməsi, kadr siyasətinin gücləndirilməsi, ən başlıcası dövlət qulluqçularının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü addımlar atır. Peşəkar dövlət qulluqçularının mükafatlandırılması, Fəxri adlara, orden və medallara layiq görülməsi, əmək haqlarının ardıcıl olaraq artırılması bu siyasətin əsasını təşkil edir.

Cənab Prezidentimizin də dediyi kimi, "Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar." Dövlət başçısının müvafiq sərəncamlarıyla təyin etdiyi mərkəzi və yerli icra hakimiyyətlərinin rəhbərlərini qəbul etməsi, onlara zəruri tapşırıqlar verməsi, o cümlədən əhali ilə sağlam münasibətlərin qurulması istiqamətində verdiyi tövsiyələrdə bu prosesin aydın izahı verilir. Son dövrlər Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan struktur islahatlarının əsas məqsədi də idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev öz gündəlik fəaliyyətində dövlət qulluğunun mükəmməl nümunəsini nümayiş etdirir və hər bir məmurdan, hər bir dövlət qulluqçusundan da bunu qətiyyətlə tələb edir. Əlbəttə, bu gün dövlət hakimiyyəti orqanlarında çalışmaq, dövlət qulluğu vəzifəsi tutmaq çox böyük şərəf olmaqla bərabər, həm də çox ciddi məsuliyyət və cavabdehlik deməkdir. Dövlətimizin inkişaf etdiyi bir dövrdə ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələri icra etmək səviyyəsində olmaq üçün dövlət qulluqçusu daim öz üzərində çalışmalı, andına sadiq olmalı, fəaliyyətində qanunçuluğu, qanunun aliliyini rəhbər tutmalı, özünün peşəkarlıq səviyyəsini və səriştəsini artırmalıdır.

Müasir və güclü dövlətin, səmərəli, demokratik və şəffaf idarəetmənin formalaşdırılması istiqamətində aparılan ardıcıl islahatlar ölkədə vətəndaşa yönümlü dövlət qulluğu modelinin formalaşdırılmasına, dövlət qulluğunun "cəmiyyətə, xalqa xidmət" mənasını qazanmasına, milli kadr siyasətinin əsas istiqamətlərinin, müasir dövlət qulluqçusunun zəruri xüsusiyyətlərinin müəyyənləşdirilməsinə səbəb olur. Milli-mənəvi dəyərlərə bağlı, dövlətini və millətini sevən, müasir və yaradıcı təfəkkürlü, geniş dünyagörüşlü, peşəkar kadrların dövlət qulluğuna cəlb olunması, həmçinin kadr potensialının, insan resurslarının intellektual bazasının yenilənməsi və genişləndirilməsi üçün mühüm tədbirlər keçirilir. Respublikamızda kadr siyasəti peşəkarlıq, müasirlik, milli ideologiya və milliliklə ümumbəşəri dəyərlərin optimal vəhdəti, xalqa xidmət kimi meyarlar üzərində qurulur. Dövlət siyasətinin mərkəzində vətəndaşın durması, dövlət xidmətləri sahəsində vətəndaş məmnunluğunun xüsusi önəm daşıması, vətəndaşa yönümlü peşəkar dövlət qulluğunun yaradılması kadr siyasətinin məzmununa və icra mexanizmlərinə də yeni çalarlar qazandırır.

İşi daim ictimaiyyətin diqqət mərkəzində olan, dövlət idarəçiliyində iştirak edən hər bir vətəndaş öz fəaliyyətində humanizm və sosial ədalət prinsiplərinə əsaslanan mənəvi normaları rəhbər tutmalıdır. Şübhəsiz ki, mənəvi saflıq, vicdanlılıq, təmənnasızlıq dövlət qulluğunda əsas meyarlar hesab edilir. Dövlət qulluqçusu ilk növbədə nümunəvi vətəndaş, Vətənini, torpağını, tarixini sevən, onu dəyərləndirən keyfiyyət sahibi olmalıdır.

Dövlətimizin başçısı öz çıxışlarında dövlət qulluğunun mahiyyətini, məzmununu və dövlət qulluqçularının qarşısında qoyulan əsas tələbləri aydın göstərib və bu vacib sahəni daim diqqət mərkəzində saxlayır. Dövlət qulluqçusu dövlətin idarəetmə sisteminin güzgüsüdür və bu güzgünün şəffaf, ləkəsiz olması hər bir dövlət qulluqçusunun hərəkətlərindən, davranışından, prinsipiallığından, mənəvi keyfiyyətlərindən çox asılıdır.

Hər birimizin qarşısında duran mühüm vəzifələrdən birincisi vətəndaşlıq mövqeyindən çıxış etmək, ölkənin daha da qüdrətlənməsi üçün çalışmaq və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq və əlindən gələni əsirgəməmək hər bir dövlət qulluqçusunun müqəddəs borcudur.

**Amil CAVADOV**

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri, YAP Gənclər Birliyinin Şura üzvü*

*"Respublika" qəzeti*

# QURBAN BAYRAMI

## Xeyirxahlıq və mərhəmətin zirvəsi

Qurban bayramı hər il müsəlman ölkələrində coşqu və təmtəraqla qeyd edilir. İslam dinində xüsusi əhəmiyyət daşıyan Qurban bayramının əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlığı imkansız, yoxsul və kimsəsiz şəxslər arasında bölmək, onları sevindirmək-dir. Dinimizə görə, bayram günlərində uşaq və qocalar evlərini, şəhid ailələrini ziyarət etmək, sevinc və kədərlərinə şərik olmaq, onlara bayram sovqatı vermək savab əməllərdəndir. O cümlədən, Vətən uğrunda sağlamlığını itirən qaziləri, təbii fəlakətlərdən ziyan çəkmiş kimsələri sevindirmək də təqdir olunan hərəkətlərdəndir. Bu bayramda ahıllar, maddi cəhətdən sıxıntı yaşayan yaşlılar da yaddan çıxarılmamalı və ziyarət olunmalıdır.

Qurban bayramı təkcə Uca Tanrının buyurduğu vacib əməl, dini ayin deyil, həmçinin birlik, bərabərlik, qardaşlıq və yardımlaşmanın təcəssümüdür. Onun ən gözəl xüsusiyyətlərindən biri də bu ayində din, məzhəb ayrı-seçkiliyinə yol verilmədən istənilən kimsəsizə və yoxsula varlının imkanından bəhrələnmək haqqının verilməsidir.

Bu gün Azərbaycan Respublikası müstəqil və demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Bütün sahələrdə əldə etdiyimiz uğurlar göz qabağındadır. Dünyəvi dövlətimiz bütün din mənsublarına, o cümlədən əhalinin əksəriyyətini təşkil edən müsəlmanlara böyük hörmətlə yanaşır.

Öz tarixinə, milli və dini ənənələrinə həmişə sadiq qalan Azərbaycan xalqı artıq neçə ildir ki, Qurban bayramını yüksək səviyyədə qeyd edir. İslamla bağlı əlamətdar günlərə və dini bayramlara böyük önəm verən, onların keçirilməsi üçün lazımi şərait yaradan Ulu Öndər Heydər Əliyev çıxışlarının birində demişdir: “Mübarək Qurban bayramı adətən insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur”.



Bu fikir Qurban bayramının cəmiyyət və insanlar arasında nə qədər önəm daşıdığının bariz nümunəsidir.

Dövlətimiz vicdan azadlığına, xüsusən onun tərkib hissəsi olan din azadlığına böyük diqqət göstərir. Ölkə vətəndaşları azad, sərbəst və müstəqil şəraitdə öz dini etiqadlarını həyata keçirirlər. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, Qurban və Ramazan kimi dini bayramlar dövlət səviyyəsində qeyd edilir.

Hər il Qurban bayramı münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqını təbrik etməsi bu bayramın əhəmiyyətinə verilən yüksək qiymətdir. Ölkə başçısının qeyd etdiyi kimi, müqəddəs Qurban bayramı İslamın din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsilə də əlamətdardır. Bu bayram günündə müsəlmanlar Uca Yaradana yaxınlığın, ilahi dəyərlərə bağlılığın sevinc və fərəhini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Prezident İlham Əliyev çıxışların birində demişdir: “Hər il ölkəmizdə böyük təntənə ilə keçirilən Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təcəssümünə çevrilir”.

Rəvayət olunur ki, Həzrət Əlidən (ə) “bayram nədir”, - deyə soruşduqda, belə cavab vermişdir: “Günahsız keçən hər gün bayramdır”.

Hər günümüzün bayram olması arzusu ilə xeyirli bayramlar!

**Namiq ZEYNƏDDİN**

# 26 İYUN: ŞƏRƏF VƏ QÜRUR GÜNÜMÜZ!

Qədim, zəngin və keşməkeşli tarixə malik Azərbaycan xalqı həmişə sülhün tərəfdarı olub, qonşularına mehriban, isti münasibət göstərib. Lakin son dərəcə əlverişli coğrafi mövqeyə, zəngin təbii ehtiyatlara malik bu məmləkətin qapısından düşmən əskik olmayıb. Vətənimiz daim güclü dövlətlərin təzyiqlərinə, hərbi təcavüzünə məruz qalıb. Bununla belə, xalqımız öz mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, qəhrəmanlıq nümunələri göstərib, mərdliklə döyüşüb, böyük sərkərdələr yetişdirib. Həmin sərkərdə və dövlət xadimləri isə Azərbaycanın qəhrəmanlıq tarixinin bütöv bir salnaməsini yaradıblar. Onların yaratdığı dəyərli ənənələr yüzilliklər boyu, o cümlədən ötən əsr ərzində uğurla davam etdirilib.

...XIX əsrin əvvəllərində vətənimizi əsarət altına alan Çar Rusiyası azərbaycanlıları hərbi mükəlləfiyyətdən azad etmişdi. Bu səbəbdən imperiya ordusunun yalnız zabit korpusunda müsəlman zadəganlarının nümayəndələrinə rast gəlinirdi. Çar Rusiyası dağıldıqdan sonra həmin zabitlər vətənə qayıtmış yeni yaradılan Azərbaycan Xalq Cümhuriyyəti ordusunda xidmətə başlamışdılar. Təsadüfi deyil ki, 1918-ci ilin mayında qurulan dövlətimizin bütün hərbi qüvvəsi, vur-tut, bir alaydan – “Tatar atlı alayı”ndan ibarət idi. 1918-ci il iyunun 26-da diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul olunması ilə Azərbaycanda milli ordunun təməli qoyuldu. Yeni yaradılan ordumuz qısa müddət ərzində Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırdıb, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni quldur dəstələrini darmadağın etməklə yüksək səriştə nümayiş etdirdi. AXC-də ordu quruculuğunun başlıca aspektlərindən biri bu fəaliyyət sahəsinin dövlət quruculuğunun mərkəzində dayanması idi. Hərbi məsələlər yeni cəmiyyət quruculuğunun digər sahələri ilə sıx şəkildə tənzimlənir, bütün imkanların Azərbaycanın ərazi bütövlüyünün qorunmasına səfərbər olunması üçün təxirəsalınmaz və qəti addımlar atılırdı. 1918-1920-ci illərdə hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı ölkə parlamenti 9 qanun layihəsini nəzərdən keçirmiş və müvafiq qərarlar qəbul etmişdi. Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 aylıq qısa zaman kəsiyində bütün problemlərə baxmayaraq, dövrün istedadlı generallarının böyük zəhməti nəticəsində özünün ordusunu yaratmış və ordunun peşəkar hərbi quruma çevrilməsi üçün mühüm tədbirlər həyata keçirmişdi. 1918-ci ildə bir alayı olan Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin aprelində - işğal ərəfəsində 40 minlik nizami ordusu var idi. Təkcə bu fakta diqqət yetirməklə o dövrdə ordu quruculuğunda əldə edilən nailiyyəti görmək mümkündür. Təəssüf ki, Azərbaycanın bolşevik rus ordusu tərəfindən işğalından sonra müstəqilliyimizin ən mühüm atributu olan milli ordu hissələri ləğv edildi. Ordumuzun ayrı-ayrı birlikləri tərəfindən işğalçılara qarşı başladılan üsyanlar isə amansızlıqla yatırıldı.

Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu illərdə milli zabit korpusunun formalaşmasına, azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsinə Sovet rəhbərliyi tərəfindən məqsədyönlü şəkildə daim süni manеə yaradılırdı. Lakin Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra öz təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaratdı. Bu isə ölkəmizdə hərbi kadrların hazırlanması prosesində yeni mərhələ idi. Milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrlarının hazırlanmasına güclü təkan verdi. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Məktəb müstəqilliyimizi bərpa etdikdən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi.

1991-ci ilin oktyabrında - müstəqillik ərəfəsində keçmiş Ali Sovet Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul etsə də, müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verilmiş, yanlış idarəetmə ucbatından nizami ordu əvəzinə ayrı-ayrı qruplara və ya şəxslərə tabe olan hərbi birləşmələr təşkil edilmişdi. Həmin dövrdə ayrı-ayrı hərbi birləşmə rəhbərlərinin hakimiyyət uğrunda mübarizəsi, eləcə də iqtidardakıların səriştəsizliyi ucbatından respublikada özbaşınalıq və xaos hökm sürürdü. Bundan istifadə edən düşmən isə torpaqlarımızın işğalını davam etdirirdi, belə bir vəziyyətdə - 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədəki böhran vəziyyəti aradan qalxdı, siyasi sabitlik yarandı. Bu isə bütün sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımların atılmasına şərait yaratdı. 1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra isə bu proses daha da sürətləndi. Həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı. Ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlandı. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Həmin dövrdə 1991-ci ildə Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix – 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi qeyd edilirdi. Lakin Ulu Öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Bu Fərman tarixi həqiqətin təsdiqi və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm sənəddir.

Bu gün Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək imkanlarına sahibdir. 2016-cı ilin tarixi Aprel döyüşündə, eləcə də 2018-ci ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat keçirməklə Azərbaycan Ordusu düşmənə həm öz yerini göstərdi, həm də nümayiş etdirdi ki, ölkəmiz işğalla heç vaxt barışmayacaq, öz ərazi bütövlüyünü bərpa edəcək!

**Ramil HİKMƏT**

# Aqil Şirinov: Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi heç vaxt cəmiyyətə xurafat danışmaz və danışmamalıdır da, çünki aldığı təhsil buna imkan vermir

*Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun “Cəmiyyət və Din” qəzetinə müsahibəsi*

**- Aqil müəllim, əvvəlcə sizi Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməyiniz münasibəti ilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq. Adətən, vəzifəyə təyinatın 100-cü günündə olur bu cür görüşlər, biz isə sizinlə təyinatınızın 38-ci günündə görüşürük. Doktorluq işinizdə irsini araşdırdığınız Nəsimi kimi siz də hərflərin/rəqəmlərin mistikasına inanırsınız?**

- Təbrikinizə görə təşəkkür edirəm. Çalışacağam ki, cənab Prezidentin göstərdiyi etimadı doğruldum və İlahiyyat İnstitutunu elmi-akademik tədqiqat, tədris baxımından daha da inkişaf etməsinə nail olaq. Rəqəmlərin mistikasına gəlincə, bu, çox uzun tarixi olan, hətta deyərdim ki, qədim yunan düşüncəsindən gələn məsələdir. Bilirsiniz ki, Pifaqor böyük filosof, alim idi. Onun ətrafına toplaşanları fəlsəfədə pifaqorçular adlandırırlar. Pifaqorçuluq həm fəlsəfi, həm də dini-mistik tərəfləri olan məktəb idi. Pifaqorçular rəqəmlərin, bir növ, mistik təbiətinin olduğunu, hətta varlığın, ümumiyyətlə, rəqəmlərdən ibarət olduğunu deyirdilər. Bu düşüncə orta əsrlərdə İslam aləmində yaranmış müəyyən məktəblərə də təsirini göstərdi. Bu məktəblərdən biri də hürufilikdir. Burda artıq rəqəmlərin yox, hərflərin müqəddəsliyinin önə çıxdığını görürük. Simvolik məna ifadə edir. Konkret din prizmasından yanaşsaq, hərflərin, rəqəmlərin müqəddəsliyindən söhbət gedə bilməz. Bir hərfin başqa hərfdən, bir rəqəmin başqa rəqəmdən üstünlüyü və ya rəqəmlərin hər hansı mistik mənası haqqında dini ədəbiyyatlarda hər hansı məlumata rast gəlinmir. Amma dediyim kimi, bəzi İslam məktəblərində hərflərin mistik gücünə inancı görürük. Mənim fikrimi bilmək istəyirsinizsə, rəqəmlərin, hərflərin müqəddəsliyinə, hər hansı mistik məna ifadə etdiyinə inanmıram.

**- Madam ki, söhbətə fəlsəfədən başladıq, ikinci sualı bir qədər obrazlı, fəlsəfi çalarlı formada vermək istəyirəm. Müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdə odlar ölkəsi Azərbaycanda, xüsusilə də, küləklər şəhəri Bakıda dörd yandan “yad küləklər” əsirdi dini müstəvidə. Bəs bu gün necə, həmin “yad küləklər” yenə əsirmi? Əsirsə, sizcə, hansı istiqamətdən gələn “külək” daha təhlükəlidir?**

- Tamamilə doğru vurğuladınız, müstəqilliyimizin bərpasının ilk illərində dini sahədə ciddi boşluqlar var idi. Təəssüf ki, ölkə daxilində bu boşluğu dolduracaq qüvvələr də kifayət qədər deyildi. Çünki məlum səbəblərdən sovet dövründə dini təhsil yox idi, daha doğrusu, çox məhdud səviyyədə idi. Dini təbliğat qadağan edilmişdi. Dini təhsil verən mədrəsələr bütövlükdə ittifaqın din adamı, din alimi tələbatını ödəmirdi. İnsan nəyəsə inanmağa meyilli, inanc ehtiyacı olan varlıqdır. Buna din psixologiyasında insanın məna axtarışı deyirik. Bu məna axtarışına ən yaxşı cavab verən sosial institut isə dindir. İnsan içindəki o boşluğu doldurmaq üçün kimlərinsə, nələrinsə ardınca gedir. Azərbaycanda həmin illərdə olan boşluqdan istifadə edən xarici ölkələrdəki dini qruplar ölkəmizə axışmağa başlamışdılar. Onların içərisində niyyətləri həqiqətən dini təbliğ etmək istəyənlərlə yanaşı, təəssüf ki, radikal, məzhəbçi, hətta dövlətimizin dünyəvi strukturu ilə barışmayan müəyyən qruplar da var idi. Həmin dövrdə bu məsələləri tənzimləyən qanunvericilik bazası qurulmamışdı. Sonrakı illərdə, xüsusilə, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu sahə ilə bağlı qanunvericilik sistemi formalaşdırıldı. “Dini etiqad azadlığı haqqında” Qanun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu mənada mühüm dəyişiklik idi. Zaman keçdikcə dini sahə ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi yönündə atılan addımlar, Dövlət Komitəsinin uğurlu fəaliyyətinin nəticəsidir ki, dediyiniz “küləklər” səngiməyə başladı. Hətta bu gün üçün o “küləkləri” ciddi təhlükə kimi görmürəm. Çünki ölkəmizdə bu sahədə kifayət qədər məlumatlı və peşəkar mütəxəssislər var. İlahiyyat İnstitutunun yaradılması da bu mütəxəssislərin sayını artırmağa xidmət edir. Ancaq bugünkü vəziyyət bizi qətiyyən arxayın etməməlidir. Çünki Azərbaycan özünü bütün ölkələrdən təcrid etmiş bir ada deyil. Şübhəsiz ki, dünyada baş verən qlobal hadisələr bizə də təsir edir. Üstəlik, sosial şəbəkələrin bu qədər inkişaf etdiyi, internetdən istifadə imkanlarının geniş vüsət aldığı müasir dövrdə bir nəfərin çıxışı bir dəqiqə içərisində bütün dünyada izlənilir. Təhlükə həmişə mövcuddur, amma dediyim kimi, bizim o cür təhlükəyə qarşı immunitetimiz var.

**- Din sahəsində mütəxəssis seçimində İlahiyyat İnstitutunun üzərinə böyük məsuliyyət düşür. Necə seçirsiniz gələcək tələbələrinizi, “bu adam savadlı din xadimi olacaq” diaqnozunu necə qoyursunuz? Axı hər birinin, ən azı, ailədən gələn məzhəb seçimi olur, bu isə onun gələcəkdə məzhəbçi din xadimi olmasına gətirib çıxara bilər. Üstəlik, İnstitut yaradıldığı birinci il tələbə qəbulunda çox aşağı ballar götürülmüşdü. Həmişə deyirik ki, din xadimlərimiz savadlı olmalıdırlar, ancaq aşağı balla qəbul olunmuş tələbənin gələcəkdə savadlı kadr olacağı şübhəli deyilmi?**

- Bilirsiniz ki, İlahiyyat İnstitutunda təhsil iki istiqamət üzrə verilir: dinşünaslıq və islamşünaslıq. Dinşünaslıq istiqamətində İslamla yanaşı, digər böyük dinlər haqqında deskriptiv bilgiləri ehtiva edən fənlər tədris olunur. İslamşünaslıq istiqamətində isə daha çox İslam dinini müxtəlif aspektlərdən öyrənən fənlər tədris olunur. Eyni zamanda, hər iki istiqamət üzrə kifayət qədər dünyəvi elmləri tədris edirik. Çalışırıq ki, tələbələrə dini teoloji aspektlə yanaşı, fəlsəfi, tarixi, sosioloji və psixoloji aspektlərdən də öyrədək. Məzhəblərlə bağlı qeyd etdiyiniz məsələ haqqında onu deyə bilərəm ki, dünyada dini təhsilin müxtəlif formaları var. Bunlardan biri konfessional tədrisdir, yəni tədrisdə bir din və ya məzhəb əsas götürülür, həmin dindən və ya məzhəbdən çıxış edərək dərs keçirilir. Digər təcrübələr isə “din haqqında” və “dindən öyrənmə”dir. Biz daha çox bu son iki təcrübə ilə getməyə çalışırıq. Müəyyən bir məzhəbi əsas götürmürük, bütün İslam məzhəblərinin görüşləri haqqında təsviri bilgilər veririk. Həmçinin böyük dünya dinləri haqqında da deskriptiv metodla məlumat veririk. Konkret İslamşünaslıq istiqamətinə gəlincə, bu istiqamətdə Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi qəbul imtahanından sonra namizədlər dini-psixoloji komissiyadan keçirlər. Dini-psixoloji komissiya namizədlərin savadı ilə yanaşı, onların gələcəkdə din xadimi olmaq istəyib-istəmədiyini, emosional vəziyyətlərinin buna imkan verib-vermədiyini, dövlətçilik ənənələrimizə bağlı olub-olmadıqlarını və s. bu kimi xüsusiyyətlərini müəyyənləşdirir. Sonda yekun qərarı DİM verir. Gələk ilk ildəki qəbul balına. Bəli, doğru qeyd etdiniz ki, İslamşünaslıq istiqaməti üzrə qəbul balı tədrisə başladığımız ilk ildə aşağı idi. Bu da İlahiyyat İnstitutunun hələ ictimaiyyət arasında yaxşı tanınmamasından irəli gəlirdi. Hətta xarici ölkələrdə institutlar yaradıldıqları il tələbə qəbul etmirlər. Amma bizim bazamız, yaxşı müəllim heyətimiz olduğuna görə - bilirsiniz ki, Bakı Dövlət Universitetinin keçmiş İlahiyyat fakültəsi institutumuzun strukturuna daxil edildi - tələbə qəbulunu ilk ilimizdəcə həyata keçirdik. Ancaq ikinci il İslamşünaslıq istiqaməti üzrə də qəbul balı yüksəldi. Biz minimum 150 bal qoymuşduq qəbul üçün, ancaq ikinci il qəbul olanların topladıqları ən aşağı bal 200 idi. Bizim 500-dən yuxarı bal toplayan tələbələrimiz də var. Dinşünaslıq istiqaməti üzrə isə ən aşağı bal alan tələbəmiz 292 balla İnstituta qəbul olub. Həmçinin, dinşünaslıq üzrə orta bal 346, islamşünaslıq üzrə isə 262 olub. Kifayət qədər intellektli tələbələrimiz var. Digər tərəfdən, bəzən elə abituriyentlər olur ki, obyektiv səbəblərdən ali təhsil imtahanlarına yaxşı hazırlaşa bilmirlər, nəticədə qəbul imtahanında aşağı bal toplayırlar. Ancaq bu, heç də onların intellektual səviyyələrinin aşağı olduğunu göstərmir. Tədris prosesində onların intellektual səviyyələrini yüksəltmək mümkündür. Mən bunu müəllimlik təcrübəmdə çox görmüşəm. Elə tələbələrim olub ki, qəbul imtahanında 500-dən yuxarı bal toplayıb, ancaq ali təhsil almaqda çətinlik çəkib. Elə tələbəmiz də olub ki, 200-dən bir az yuxarı bal toplayıb, amma ali təhsilini yüksək səviyyədə tamamlayıb. Bəli, çalışırıq ki, qəbul balımız yüksək olsun, hər il bununla bağlı təbliğat kampaniyaları keçiririk. Ancaq dediyim kimi, yüksək bal heç də həmişə önəmli rol oynamır. Əsas olan tələbənin potensialını kəşf etmək, onu bu potensial uyğun olaraq doğru istiqamətə yönəldərək yaxşı kadr kimi yetişdirməkdir. Qeyd etdiyim kimi, biz tələbələrimizə bütün böyük dinlər və məzhəblər haqqında məlumatları tədris edirik. Ancaq İnstitutumuzdakı tədris proses hansısa məzhəbin doğru, hansınınsa yanlış olduğu üzərində qurulmur. Əksinə, çalışırıq ki, məzhəblərarası fərqliliyi insanları bir-birindən ayıracaq deyil, bir-biri ilə birləşdirəcək səviyyədə aşılayaq. Çünki məzhəblərin müxtəlifliyini İslamın zənginliyi kimi görürük. Məzhəblər – İslam məktəbləridir, eyni mərkəzə aparan yollardır. Mən eksklüzivist olmayan bütün qrupları İslamın zənginliyi hesab edirəm. Problem müxtəlif məzhəblərə, təriqətlərə mənsub olmaq deyil. Problem öz məzhəbini, təriqətini digərlərindən üstün tutmaq və onu insanlara din kimi təqdim etməkdir. Məzhəblərin hamısı insanlara dini doğru şəkildə çatdırmaq üçün meydana çıxıb. Biri bir şəkildə çatdırır, digəri başqa şəkildə. Ancaq ümumi götürsək, hamısı İslamın təməl əqidə prinsiplərində birləşirlər.



**- Dolayısı ilə hamısı stəkanın dolu olduğunu deyir...**

- Bəli. Sadəcə olaraq hərəsi o stəkana fərqli tərəflərdən, prizmalardan baxır. Ancaq o baxış bucaqlarını mütləqləşdirməməliyik. Mütləqləşdirəndə problemlər, məsələn, hansısa məzhəbin haqq, digərlərinin batil olması söhbətləri ortaya çıxır və bu da cəmiyyətdə parçalanma yaradır. İlahiyyat İnstitutunun məqsədi tələbələrə bütün məzhəblər haqqında məlumat vermək, onlara məzhəblərə ayırıcı deyil, birləşdirici prizmadan yanaşmaq düşüncəsini aşılamaqdır.

**- Hazırda institutda hər istiqamət üzrə neçə tələbə təhsil alır?**

- Keçənilki planımız hər iki istiqamət - həm dinşünaslıq, həm də islamşünaslıq üzrə 36, cəmi 76 nəfər olub. Bu il də bu sayda tələbə qəbul etməyi planlayırıq. Eyni zamanda, xarici tələbələri də təhsil ocağımıza cəlb etməyə çalışırıq. Xüsusilə xaricdə yaşayan soydaşlarımızın Azərbaycan İlahiyyat İnstitutunda dini təhsil almalarını istəyirik. Hazırda institutumuzda 5 əcnəbi tələbə təhsil alır və hər biri xüsusi təqaüdlə təmin olunub.

**- İki-üç ildən sonra ilk məzunlarınızı verəcəksiniz, bir çoxu din xadimi olacaq. Hazırkı din xadimlərimizin əksəriyyəti orta və yaşlı nəslin nümayəndələridir. Sizin məzunlar isə gənclər olacaq. Nəsil dəyişikliyi labüddür və o anda “atalar və oğullar” problemini yaşayacağımızı düşünmürsünüz?**

- Bu məsələ tarix boyu aktual olub. Tələbələrimizə hər zaman deyirik ki, gələcək fəaliyyətinizi keçmiş ənənələri inkar üzərində qurmayın. Bu günə qədər o ənənələr davam edir. Bəli, bu ənənənin müasir dövrlə ayaqlaşmayan tərəfləri ola bilər və bunlar düzəldilməlidir. Ancaq bu uyğunlaşdırma ənənənin tamamilə inkarına gətirib çıxarmamalıdır. Yəni oğullar öz atalarının yolunu tamamilə inkar etməməlidirlər, əks halda bu gün müşahidə etdiyimiz radikalların yolu ilə gedəcəklər. Bilirsiniz ki, İslam tarixində bütün radikal qrupların ortaya çıxması ənənədən uzaqlaşma ilə başlayıb. Azərbaycandakı dini ənənə həmişə birləş-

davamı səh. 9

# Aqil Şirinov: Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi heç vaxt cəmiyyətə xurafat danışmaz və danışmamalıdır da, çünki aldığı təhsil buna imkan vermir

*Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi*

əvvəli səh. 8

dirici olub. Çünki tarixin süzgəcindən keçib gəlib. Bu ənənədən imtina etsək, birgəyaşayış ənənəsindən də imtina etmiş olarıq. Hər bir dini təhsil alan tələbə dini doğru şəkildə təbliğ etməklə məsuldur. Eyni zamanda, dini müasir dövrün tələblərini və çağırışlarını nəzərə alaraq insanlara çatdırmalıdır. Bu o demək deyil ki, dini dəyişdirir. Xeyr. Dinin təməl prinsipləri dəyişməz qalır. Sadəcə, dini təbliğ edərkən müasir dövrün, cəmiyyətin reallıqlarını da nəzərə almaq lazımdır.

**- Amma təəssüf doğuran bir fakt da var. Doğrudur, əvvəlki illərlə müqayisədə sayları azalıb, ancaq yas mərasimlərində, xüsusilə də, əyalətlərdə, kəndlərdə keçirilən yas mərasimlərində din adından təsəvvürə gəlməyən miflər, əfsanələr uyduran din adamları-mollalar var. Sizin tələbələriniz bir gün təyinat aldıqları yerlərdə onlarla üz-üzə gələcəklər. Tələbələrinizə o insanlarla "mübarizədə" necə davranmağı tövsiyə edirsiniz? İllərdir miflərlə, əsatirlərlə qulağı doldurulan yerli camaata həqiqi dindən danışmağa necə başlayacaqlar?**

- Əvvəlcə, məsələyə empatiya quraraq cavab verməyə çalışacam. Söhbətimizin əvvəlində də dediyim kimi, sovet dönəmində dini təhsil çox məhdud səviyyədə idi. Buna görə də, obyektiv səbəblərdən yetərli dini savadı olmayan bəzi din xadimləri atadan, babadan eşitdiklərini, bəlkə, xurafatla, nağıllarla qarışdırılmış, şifahi ənənəyə əsaslanan din anlayışını insanlara çatdırıblar. Şifahi ənənədə isə təhriflər çox olur. Amma başqa prizmadan yanaşsaq, onlar dini ənənəni də qoruyublar, bu da onların müsbət xidmətləridir. Müasir dövrdə isə bunu davam etdirməyin yeri yoxdur. Çünki müasir insan miflərə, nağıllara inanmır. Xüsusilə, bu günün gəncləri oxuyan və mühakimə edən nəsildir. Oxuyan və mühakimə edən insana əfsanələri həqiqət kimi qəbul etdirə bilməzsiniz, o, belə şeyləri gülüb kənara atacaq. Bilikli dini kadrlar yetişdikcə cəmiyyət özü o xurafat danışanlardan getdikcə uzaqlaşır və bir gün tam uzaqlaşacaq. Beləliklə, onlara tələbat olmayacaq, çünki sizi dinləyən kütlə varsa, əhəmiyyətlisiniz. Sizi dinləyən kütlə yoxdursa, əhəmiyyətinizi itirirsiniz. Bu məqamları nəzərə alaraq İlahiyyat İnstitutunda təhsil sistemini müasir dövrün tələblərinə uyğun qururuq. Biz tələbələrə təkcə fiqh, kəlam, hədis, təfsir və s. kimi dini elmləri tədris etmirik. Biz onlara dini dünyəvi tərəfdən öyrədən elmləri də tədris edirik. Məsələn, "Din sosiologiyası" dünyəvi fəndir. Adındakı "din" sözü onu dini fənn etmir. Həmçinin "Din psixologiyası", "Din fəlsəfəsi" və s. fənlər tələbəyə imkan yaradır ki, dinə bir prizmadan baxmasın. Çünki din təkcə teoloji bir institut deyil, eyni zamanda ictimai, psixoloji, tarixi və fəlsəfi yönləri olan bir fenomendir. Bu baxımdan dini müxtəlif aspektlərdən öyrənsəniz, həm dünyagörüşünüz geniş olar, həm də insanlara dini təbliğ edəndə cəmiyyətin, müasir dövrün reallıqlarını nəzərə alarsınız. Biz də tələbələrimizi bu yöndə yetişdirməyə çalışırıq. Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi heç vaxt cəmiyyətə xurafat danışmaz və danışmamalıdır da, çünki aldığı təhsil buna imkan vermir. Mən akademik səviyyəsi olan insanların din xadimi olmasını da həmişə təqdir etmişəm. Məsələn, Avropa ölkələrində rast gəlmişəm, universitetdə müəllim olan şəxs təqaüdə çıxdıqdan sonra kilsədə keşişlik etməyə başlayıb. Dinin cəmiyyətə yüksək səviyyədə çatdırılması üçün belə insanlar da olmalıdır. Müsəlman ölkələrində də var bu kimi faktlar.

**- Aqil müəllim, hazırda gözümüzün önündə dünyanın mənzərəsi qəribə şəkil alıb: biz ölkə olaraq dəyərlərimizi təbliğ edirik, qoruyuruq. Dünyanın başqa bir hissəsində isə bütün dəyərlərdən imtina prosesi başlayıb...**

- Dünya çox sürətlə dəyişir, qloballaşma elə prosesdir ki, müsbət və ya mənfi mənada demirəm, dünyanın mənzərəsini tamamilə dəyişdirir. Artıq dünyamız qlobal kəndə çevrilib. O qədər kiçilib ki, onun bir ucunda baş verən hadisələr bir gün sonra digər ucuna da təsir edə bilir.

**- Və gün gələcək, bu qlobal kənddə "iki camaat" olacaq: biri öz dəyərlərinə sahib çıxan, digəri o dəyərləri qəbul etməyən. İndi bu "kənd camaatı" bir-biri ilə necə yola gedəcək?**

- Problem budur ki, bu qlobal kənddə qlobal dəyərlər adı ilə insanlara müəyyən fikirlərin təbliğ edildiyini görürük. Bunların bir qismi, həqiqətən də, qlobal dəyərdir. Ancaq digər qismi qlobal dəyər deyil və insanların yerli mədəniyyətlərini sıradan çıxarmağa köklənib. Bəlkə də bunlar qəsdən edilmir, ancaq reallıqda belədir. Hər zaman hakim mədəniyyət hakim olmayan mədəniyyətlərə təsir edib və bəzən onun tarix səhnəsindən silinməsinə də yol açıb. Qloballaşma dövründə hansı ölkələr, hansı xalqlar ki öz dəyərlərinə sahib çıxırlar, onları dövrün tələbələrini də nəzərə alaraq təbliğ edirlər, bu assimilyasiyaya məruz qalmaqdan qurtulacaqlar. Belə bir söz var, dəyişən dünyada bizim qurtulmaq üçün tuta biləcəyimiz möhkəm budaqlar dəyişməyən dəyərlərdir. Qloballaşma bir seldir, bu selin qabağında heç kim dura bilməz və gördüyünüz kimi də, dura bilmir. Sadəcə sel gələndə hansı ağacın kökü möhkəmdir, ona bir şey edə bilmir. Əksinə, o ağac, bəlkə də, seldən müəyyən mənada qidalanır. Ancaq hansı ağacın kökü yoxdur, onu sel məhv edir. Dəyərlərimiz də bizim üçün o kökü möhkəm olan ağacdır və onu qorumalıyıq. Bəli, bu, çox çətindir. Hətta biz postmodernizm deyilən bir dövrdən danışırıq. Postmodernizmi bəzən dəyərlərin dəyərsizləşməsi kimi də təqdim edirlər. Yəni artıq dünyamız elə bir hala gəlib ki, dəyərlərin özü gülüş obyektinə çevrilir, təəssüf ki. Ancaq dəyərlərinə bağlı olan xalqlar bu prosesdən qalib çıxacaqlar. Bilirsiz ki, minlərlə xalq başqasının assimilyasiyasına məruz qalıb, tarix səhnəsindən silinib. Tarixdə elə xalqlar olub ki, hazırda o xalqın izi də yoxdur, çünki assimilyasiyaya məruz qalıb. Bu proses indi də davam edir. Bəzən görürük ki, kiçik xalqlardan hansınınsa dilində danışan bir neçə nəfərin qaldığını deyirlər. Onlar vəfat etdikdən sonra dilləri də qalmayacaq. Biz öz dəyərlərimizi övladlarımıza onların zəmanəsinə uyğun şəkildə çatdırmalıyıq. Əks halda, o dəyərlər gənclik tərəfdən qəbul olunmayacaq və biz məğlubiyyətə məhkum olacağıq. Son dövrlər, az da olsa, dəyərlərə qayıdışı Qərbdə də görürük. Orada da böyük mütəfəkkirlər lokal dəyərlərin, yerli mədəniyyətlərin əhəmiyyətini vurğulayırlar. Mənə elə gəlir ki, onlar da artıq başa düşürlər ki, qloballaşmanın müsbət tərəfi ilə yanaşı, mənfi tərəfləri də var. Dünyada dəyərlərinə bağlı gəncliklə yanaşı, dəyərlərinə tamamilə ikrah hissi ilə yanaşan gənclik də var. Heç bir ölkə istəməz ki, cəmiyyətin əksəriyyəti elə insanlardan ibarət olsun. Bu baxımdan, məncə, yeni bir dalğa başlayacaq. Dəyərlərdən qopma var idi, ancaq dəyərlərə qayıdış da başlayır.

**- İlahiyyat İnstitutu yeni fəaliyyətə başlayan zaman belə bir açıqlama verilmişdi ki, Azərbaycanda fəaliyyət göstərən qeyri-İslam dini icmaları üçün də dini kadr yetişdirmək planı var. Bu istiqamətdə hansı işlər görürsünüz?**

- Bəli, gələcəklə bağlı belə bir plan var. Ancaq onu reallaşdırmaq, şübhəsiz ki, uzun prosesdir. Çox qısa zamanda həll olunacaq bir məsələ deyil. Qeyd etmək istərdim ki, bir var din xadimi yetişdirmək, bir də var din mütəxəssisi hazırlamaq. İnstitutda hələ ki, qeyri-İslam dini icmaları üçün din xadimi yetişdirilmir, amma böyük dünya dinləri üzrə mütəxəssis yetişdirilir. Məsələn, Dinşünaslıq istiqamətinin bakalavriat səviyyəsində Xristianlıq və Yəhudiliyə dair kifayət qədər fənlər tədris olunur. Magistratura səviyyəsində isə ayrıca Dinlər tarixi ixtisaslaşmamız var və burada böyük dünya dinləri, xüsusən Xristianlıq və Yəhudilik daha dərin şəkildə öyrədilir və bunun da məqsədi müxtəlif dinləri dərindən bilən mütəxəssislər yetişdirməkdir.

**- Bu günlərdə mətbuatda yer alan xəbərlərdə bildirilirdi ki, İlahiyyat İnstitutu artıq doktorantura səviyyəsində də qəbula başlayır.**

- İlahiyyat İnstitutunda keçən ilə qədər bakalavr və magistratura səviyyələrində qəbul keçirilirdi. Bakalavr səviyyəsində iki ixtisas, magistratura səviyyəsində isə beş ixtisaslaşma var; bu ixtisaslaşmalar Dinlər tarixi, Dinin fəlsəfəsi, Din sosiologiyası, Din psixologiyası və İslamşünaslıqdır. Bu ildən Din tarixi və fəlsəfəsi, həmçinin Dinşünaslıq istiqamətləri üzrə doktoranturaya qəbul həyata keçirdik. Bizim artıq iki doktorantımız var. Bu il kifayət qədər yerimiz var idi. Amma digər universitetlərdə olduğu kimi, bizdə də doktoranturaya qəbulda qoyulmuş yeni qaydalardan qaynaqlanan müəyyən problemlər yaşandı. Bilirsiniz ki, keçən il imtahanlarda müasir dünyanın reallığını nəzərə alaraq ingilis dilini yüksək səviyyədə bilmək şərti qoyulmuşdu. İxtisaslarımıza kifayət qədər rəğbəti olan var idi. Sadəcə, ingilis dili imtahanından iki nəfər keçə bildi. Bizim imtahanlarımızda da uğurlu nəticə göstərdilər.

**- Sonda dünyanı ağuşuna almış COVID-19 pandemiyası ilə mübarizədə vətəndaşlarımıza, xüsusilə də bir ilahiyyatçı kimi dindarlarımıza tövsiyələrinizi bilmək istərdik.**

- Biz bu dövrdə filmlərdə gördüyümüz mənzərələri reallıqda gördük. İnsanlar evlərinə qapandılar, bu virus kütləvi şəkildə bütün dünyaya yayıldı. Bu pandemiya birinci deyil, hər halda, sonuncu pandemiya da olmayacaq. Tarixdə bir çox pandemiya olub. XIV əsrdə "qara ölüm" deyilən bir pandemiya var idi. Qərbi Avropa ölkələrində əhalinin ən azı 30 faizi bu pandemiyanın qurbanı olmuşdu. Eynilə 1918-1920-ci illərdə "ispan qripi" dünyanı öz ağuşuna almış, milyonlarla insanı öldürmüşdü. Günümüzdəki COVID-19 pandemiyası da dünyanı ağuşuna alıb, ancaq şükürlər olsun ki, indi tibb daha çox inkişaf edib. Artıq biz "qara ölüm" və "ispan qripi"ndəki kimi milyonları əhatə edən ölümlər görmürük. Lakin ehtiyatlı olmaqda fayda var. Xüsusilə burada yaşlı nəsil və xroniki xəstəlikləri olan insanlar təhdid altındadırlar. Məsələyə dini baxımdan yanaşsaq, bu dövrdə qaydalara əməl etmək bizim həm insani, həm də dini borcumuzdur. Peyğəmbərimizin (s) taun haqqında bir hədisini xatırlayıram. Deyir ki, taun olan yerdən çıxmayın, taun olan yerə də getməyin. Yəni bir yerdə yoluxucu xəstəlik varsa, oradan çıxıb, onu başqalarına yaymayın. Başqa bir yerdə varsa, getməyin, yoluxarsınız. Bu, Peyğəmbərin (s) müsəlmanlara əmridir. Bəzən görürük ki, cəmiyyətimizdə pandemiya ilə mübarizəyə laqeydlik göstərənlər var. Maska taxmır, məsafə saxlamırlar. Bizə Operativ Qərargah nə deyirsə, ona əməl etməliyik. Bu, dini baxımdan da bizim borcumuzdur. İslam dininə görə, insanlar yoluxucu xəstəliyi qəsdən başqasına yoluxdurursa, çox böyük günah işlədirlər. Bu baxımdan camaatımızı bu qaydalara əməl etməyə çağırıram. İlahiyyat İnstitutu da işini bu qaydalar üzərində qurdu. Həm əməkdaşlarımızla, həm də tələbələrimizlə mütəmadi şəkildə onlayn görüşlər keçirir, qaydalara əməl etmələrinin vacib olduğunu deyirik. Təhsil prosesimizi də bunun üzərində qurduq, onlayn tədrisə keçdik. İlahiyyat İnstitutu "Microsoft teams" proqramı vasitəsi ilə tədrisə keçən ilk universitetlərdən biri, bəlkə də, birincisidir. Bu sahədə Təhsil Nazirliyindən böyük dəstək gördük. Martın sonundan etibarən dərslərimizə cədvələ uyğun şəkildə davam etdik. Hazırda da onlayn imtahanlarımız kifayət qədər uğurlu şəkildə davam edir. Bir sözlə, hamımız bu yeni qaydalara riayət etməli, öz işimizi o qaydalar çərçivəsində qurmalıyıq. Nəinki İslam, Xristianlıqda, Yəhudilikdə də qəsdən başqa insana xəstəlik yoluxdurmaq, zərər vurmaq böyük günahdır. Hətta qətlə bərabər tutulur. Mən deyərdim ki, əgər bir insan lazımı qaydalara əməl etmirsə və bunun nəticəsində virusun başqalarına yoluxmasına səbəb olursa, bu da qəsdən yoluxdurmaya bərabərdir. Yəni başqasının ölümünə səbəb olursunuz, öldürürsüz. Bu məsuliyyəti dərk etməliyik ki, yaxşı nəticə ala bilək. Hansı ölkələrdə ki insanlar qaydalara əməl etdilər, bu gün o ölkələrdə yoluxma faizi çox aşağı düşüb. Hətta elə ölkələr var, orada, ümumiyyətlə, yoluxma qeydə alınmır. Əməl etsək, bizdə də eyni vəziyyət olacaq. Dövlət lazımi tədbirləri görür, cəmiyyət olaraq biz də bu tədbirlərə dəstək olmalıyıq. Mən inanıram ki, həm ölkəmiz, həm də ümumilikdə dünya bu pandemiyaya qalib gələcək.

**Müsahibəni apardı: Saleh Arslan**

# YAPONLARIN QƏDİM İNANCLAR TOPLUSU – ŞİNTOİZM

Yaponların ənənəvi dini təlimlərindən biri də Şintoizmdir. Politeist, yəni çoxtanrılı din olan Şintoizm, bir növ, arxaik şaman kultlarının varisidir. Xalqın ruhunun təzahürü kimi ortaya çıxan bu ənənəvi yapon dini onun mentalitetinə, tarixinə, mədəniyyətinə, ölkənin siyasi və ictimai həyatına təsir göstərmişdir.

Əsrlər boyu yaponlar özlərinin ənənəvi inanclarını təyin etməyə ehtiyac duymamışlar. Bu ehtiyac xarici inanclar, ilk növbədə də Buddizm, Daosizm və Konfutsiçilik kimi təlimlər adalara ayaq açdıqdan sonra yaranmışdır. Məhz Buddizmlə müxalifətdə "kami-no-miti" (hərfi mənada "tanrıların yolu") termini ortaya çıxmışdır. Bu terminin Çin dilində eyni mənaya gələn analoqu "Şen Dao"dur ki, bu da Avropa dillərinə "şinto" şəklində keçmişdir.

Xalq inancı yapon dilində "kami-no-miti" söz birləşməsi ilə ifadə olunur. Kami kultun obyekti sayılır: ümumi ibadətlərdə, o cümlədən ev ibadətlərində ona sitayiş edilir. Bu terminin adekvat tərcüməsini tapmaq olduqca çətindir, tədqiqatçılar arasında sözün etimologiyasına dair vahid fikir mövcud deyil. Avropa dillərinə, əsasən, "tanrı" və ya "ruh" şəklində tərcümə olunur.

Şintoizmə görə, insanlar, heyvanlar və cansız obyektlər (məsələn, daşlar) canlıdırlar, ruha sahibdirlər, buna görə də böyüyə bilirlər (ancaq olduqca asta). Bununla yanaşı, onlar həm də ilahi təbiətlidirlər, çünki dünya nizamını idarə edən və zərurət yarandıqda tarixinin gedişinə müdaxilə edən kami ilə əlaqəlidirlər.

Şintoizmin əsas fərqləndirici xüsusiyyəti onun, sözün əsl mənasında, heç bir kanonik mətninin olmamasıdır. Bununla belə, yaradılış haqqında şintoist ruhda və məzmunda olan miflər toplusu, qədim əfsanələr var. Bunlardan ən məşhuru "Kodziki" ("Qədim işlər haqqında qeydlər") və "Nihongi"dir ("Yapon xronikaları").

Şintoist mifologiyasına görə, ucu-bucağı olmayan yağ okeanını və ya böyük bir yumurtanı xatırladan kainat əvvəlcə xaos vəziyyətində idi, onda heç nəyi bir-birindən fərqləndirmək olmurdu. Bu başlanğıc substratda (latıncadan "sub" altında, "stratum" tikili, qurğu kimi tərcümə olunan "substrat" müxtəlif predmetlərin və predmetin özünün müxtəlif xassələrinin və onların məcmusunun əsası deməkdir) qamış zoğuna bənzər bir şey əmələ gəldi. Bu, ilk tanrı idi. O, gələcək yeddi nəsil tanrının mənşəyini təşkil edirdi. Hər nəsil bir evli cütlük (kişi və qadın tanrı) tərəfindən təmsil olunurdu.

Dünyanın meydana gəlməsində İdzanaqi (dəvət edən kişi) və İdzanami (dəvət edən qadın) adlı tanrılardan ibarət yeddinci cütlük xüsusi rol oynadı. Birlikdə bu iki ruh səma körpüsünə qalxdılar, səma mizrağını aşağıya doğru uzanan xaos dənizinə sancdılar və qalınlaşana qədər onu qarışdırdılar. Mizraq mayedən çıxarıldıqda onun ucundan okeana geri düşən yapışqan damcılar Onoqoro adasını meydana gətirdi. Tanrılar yaratmağa davam etmək üçün formalaşmağa başlayan dünyaya endilər.

Kainatın məhz animistik (animizm - ruhun varlığına inanc) qavrayışı dini şüurda ruhlar dünyası ilə insan dünyası arasında sərhədlərin yoxluğuna səbəb olmuşdur. Yapon mədəniyyətinin məşhur tədqiqatçılarından professor Cozef Kitaqava yazır ki, qədim yaponlar özlərini kosmosun ayrılmaz bir hissəsi, "kami (ilahi) təbiətli



canlılar qrupu" kimi hiss edirdilər. Başqa sözlə, insanlar yaradılmayıblar, onlar kamidən doğulublar və birbaşa onların nəslindəndirlər. Kami kimi insan da ruha sahibdir, bu da ona ölümündən sonra kamiyə çevrilməsinə imkan verir.

VI əsrdən başlayaraq Yaponiya hökuməti Buddizmi dövlət ideologiyası kimi qəbul etdikdən sonra Şintoizm ikinci plana keçdi. O, tamamilə aradan qalxmadı, ancaq yeni gələn din ilə daimi rəqabət halında idi. Digər tərəfdən, Buddizmlə yanaşı, yaponların həyatında Daosizmin və Konfutsiçiliyin təsirləri də özünü büruzə verirdi. Buddizmi inzibati üsullarla dəstəkləyən dövlət, eyni zamanda Şintoizmi tənzimləyərək ondan öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Bu hal 1868-ci ilə - qarşıdurma və iğtişaşlar dövründən sonra imperator Meydzinin (1852-1912) öz hakimiyyətini bərpa etməsinə qədər davam etdi. Həyatın bütün sahələrində genişmiqyaslı islahatlar aparmağa başlayan imperator Şintoizmə də hakim din statusunu qaytardı və ona milli dirçəliş ideologiyasının daşıyıcısı rolunu verdi.

XX əsrin 30-cu illərində Yaponiya artıq militarizmin və millətçi şovinist ideyaların təsiri altında yaşayırdı. Xüsusilə, Birinci Dünya müharibəsi illərində hərbi əməliyyatlar zamanı yapon əsgərlərin cəsarəti və özlərini qurban etməyə hazır olmaları hər kəsi heyrətə salırdı. Xüsusi intihar qrupları – kamikadze dəstələri yaradılırdı.

Həmin dövrdə belə bir dini konsepsiya mövcud idi ki, baş tanrı Amateras pilotlara Yaponiyanı qorumaq üçün xüsusi missiya tapşırmışdır. Döyüşdə ölənlər qəhrəman adı qazanır, kami elan olunur, onların adına məbədlər tikilir, ailələri isə həmvətənləri tərəfindən hörmətlə qarşılanırdı. Ölkəsi və imperator üçün canını verməyə hazır olan gənclərin sayı bunun üçün nəzərdə tutulmuş təyyarələrin sayından qat-qat çox idi. Ancaq 1945-ci ilin avqust ayında Xirosima və Naqasakiyə atılan atom bombaları, həmçinin Rusiyanın Yaponiyaya qarşı müharibəyə başlaması vəziyyəti dəyişdi. Bu hadisələr nəticəsində 2 sentyabr 1945-ci ildə Yaponiyanın şərtsiz təslimiyyəti barədə akt imzalandı.

1945-ci ilin dekabrında dini qurumlara etiqad azadlığı verən sərəncam qəbul olundu. Şintoizm milli din və ideologiya statusundan məhrum edildi. 1946-cı ilin fevralında özündə 100 min məbəddən 80 minini birləşdirən Şinto Məbədləri Assosiasiyası yaradıldı. 1947-ci ildə isə Yaponiya yeni sekulyar Konstitusiya qəbul etdi.

Bu gün yaponların əksəriyyəti praktikada az dindar olsalar da, özlərini eyni anda həm şintoist, həm də buddist sayırlar. Yaponiya ərazisinin müxtəlif bölgələrində fərqli ölçüyə və ehtiram dərəcəsinə malik 100 min məbəd var. Ənənəvi olaraq, şinto məbədi "cinca" (yapon dilindən tərcümədə "müqəddəs yer, ibadətgah" deməkdir) adlandırılır. Onu vizual olaraq buddist məbədindən fərqləndirən özünəməxsus cəhət "torii" adlanan darvazalardır. Bu darvazalar məbədin müqəddəs ərazisini ətraf ərazilərdən ayırır.

Bir çox dindar yaponun evində kiçik ev səcdəgahları – kamidanalar (hərfi mənada "kami üçün rəf") olur. Bunlar xüsusi ehtiram bəslənilən əcdadların, yaxud ailə üçün əhəmiyyətli olan ruhların şərəfinə tikilir.

Xalq mərasimləri ruhanilər, kannussi adlanan kahinlər tərəfindən həyata keçirilir. Qədim dövrlərdə hesab olunurdu ki, məbəd ayinləri zamanı kaminin ruhu kahinin bədəninə keçir. Başqa sözlə, kannusi şaman rolunu oynayırdı.

Burada şinto ibadətinin əsas struktur nöqtələrini vurğulamaq yerinə düşərdi. Məbəd yolunda ilk addım yuyunma ayini – misoqidən başlayır. Bunun ardınca təmizlənmə (harae) ayini gəlir. Bu zaman xüsusi təmizləyici dualar – kannusi oxunur, sonra isə ucuna ağ kağız parçaları yapışdırılmış ritual çubuğu ilə dua edənlərə xeyir-dua verilir. İştirakçılar həsirin üstündə əyləşirlər və kaminin çağırılması, yaxud enməsi ayini keçirilir. Bu zaman çox vaxt xüsusi mahnı ifa olunur. Kannusi pərəstişkarlarının hüzuruna "enmiş" kamiyə yemək təqdim edir və onu tərifləyən dualar oxuyur. Ardınca inananlar fərdi olaraq tanrıya bəxşiş – ucuna ağ kağız parçaları yapışdırılmış müqəddəs ağacın budağını təqdim edirlər. Bu, ruha ünvanlanan istəklərin simvoludur. Növbə qurban edilmiş qidaların götürülməsinə çatır: kannusi kaminin təqdis etdiyi qurbanı götürür. Çox vaxt müqəddəs sake ilə birlikdə həmin qidalar yeyilir. Ayin ruhun simvolik olaraq yola salınması, yaxud "qalxması" ilə başa çatır.

**Güney NAMAZOVA**

# TANRIYA EDİLƏN DUALAR KARANTİN DÖVRÜNDƏ ARTIB

Britaniya əhalisi arasında keçirilən yeni sorğu karantin dövründə Tanrıya edilən duaların artdığını göstərib. Bu barədə "Christianpost" xəbər verib.

"Tearfund" Xristian Xeyriyyə Fondunun sifarişi ilə "Savanta ComResl" sosioloji mərkəzi tərəfindən aparılan araşdırmaların nəticələrinə əsasən məlum olub ki, İngiltərədə hökumətin tətbiq etdiyi karantin dövründə daha çox insan sağlamlıq və bəlalardan xilas olmaq üçün dua edir. O da məlum olub ki, təqribən 44% insan gündəlik dualarını edir, hər 20 nəfərdən 1-i isə karantində qaldığı müddətdə ilk dəfə dua etmək vərdişinə yiyələnib. Üstəlik, sorğuda iştirak edən hər 5 respondentdən 1-i karantində məcburi yalnız qaldığı müddətdə dini mətnlərə müraciət etdiyini təsdiqləyib.

"Tearfun"-un Beynəlxalq hüquq müdafiəsi və maarifləndirmə üzrə direktoru Rut Valerio deyib: "Tearfund"-dakı təcrübəmiz bundan ibarətdir ki, dua və təcrübə insana çətin sınaqların öhdəsindən gəlməyə kömək edir. Dünyada COVID-19 virusuna yoluxma hallarının artmaqda davam etdiyini nəzərə alaraq, daha çox inanclı insanı aktiv şəkildə dua etməyə və bəlalardan qurtuluş naminə hərəkətə keçməyə çağırırıq".

Britaniyalıların yarısından çoxu (53%) doğmaları, 27%-i isə ön cəbhədə xəstəliklə mübarizə aparanlar üçün dua etdiklərini bildiriblər. Bəzi respondentlər (26%) çətin sınaqlar və böhranlar zamanı dua etməyin vacibliyini vurğulayıb, 24% isə duanın insanın daxili özünüdərkinə faydalı təsir göstərdiyini deyib, çünki bu, "ruhu sakitləşdirməyə və dünyada özünü daha az tənha hiss etməyə" kömək edir. Həmçinin məlum olub ki, karantin rejimi və sosial özünütəcridin tətbiqindən sonra kişilər qadınlardan daha çox "ibadət verilişlərini izləməyə və ya dinləməyə" başlayıblar.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2016

## KÜVEYT



Ərəbcədəki "akvat" kəlməsindən törəyən "Küvey" sözünün mənası "su kənarındakı qala" deməkdir. Küveyt Ərəbistan yarımadasının şimal-şərqində yerləşən kiçik ərəb dövlətidir. Ümumi sahəsi 17.818 kv km olan ölkə cənub və cənub-qərbdə Səudiyyə Ərəbistanı, şimal və şimal-qərbdə İraq, şərqdə isə İran körfəzi ilə həmsərhəddir. Körfəzdəki Bubiyan, Feyləkə, Varbə, Məskan, Auxa, Qaruh, Kubbar, Umm-ən-Nəmil, Umm-əl-Məradim və Kureyn adaları Küveyt dövlətinə məxsusdur. Küveyt sahəsinə görə dünyada 157-ci, əhalisinin sayına görə isə 129-cu yerdədir. Burada 4.2 milyon əhali yaşayır. 1930-cu ildə Küveytdə neft yataqlarının kəşf edilməsi ölkəyə digər ölkələrdən, əsasən də müsəlman dövlətlərindən miqrant axınına səbəb oldu. Hazırda əhalisinin 31,1 %-ni küveytlilər, 27,9 %-ni digər ərəblər, qalanını isə asiyalılar və başqa xalqların nümayəndələri təşkil edir. Ölkənin rəsmi dini İslamdır. Müsəlmanların 70%-i sünni, 30%-i şiədir.

Küveytin dövlət quruluşu konstitusiyalı monarxiyadır. Ölkədə hakimiyyətin üç qolu var: qanunverici, icra və məhkəmə. Dövlətin başçısı əmirdir. 1756-cı ildən bəri Küveytə Əl-Sabah ailəsi rəhbərlik edir. Ölkənin qanunverici orqanı parlamentdir. Parlament 4 ildən-bir seçilən 50 deputatdan ibarətdir. Küveytin rəsmi dili ərəb dili, rəsmi valyutası isə Küveyt dinarıdır. Qeyd edək ki, Küveyt dinarı dünyada ən bahalı valyuta hesab edilir.

Tədqiqatlara görə, Küveyt ərazisi e.ə III minillikdə Dilmun adlanan dövlətin tərkibinə olub. Dilmun mədəniyyətinin izlərinə Feyləkə adasında rast gəlinib. Küveytin qədim tarixi Yaxın Şərqdə yerləşən digər ərəb dövlətlərinin tarixi ilə bağlıdır.

XVI əsrin əvvəllərində İran körfəzi sahillərinə yan alan yaxşı silahlanmış müstəmləkəçi portuqaliyalılar Bəhreyni və İran körfəzinin qərb sahillərinin digər əmirliklərini zəbt etsələr də, Küveyti özlərinə tabe edə bilməyiblər. Bu mübarizədə Küveytə Osmanlı imperiyası köməklik göstərib. XVII əsrin əvvəllərində İngiltərə, Fransa və Hollandiyanın bu ərazilərə gəlməsi ölkənin vəziyyətini daha da çətinləşdirib. Bu ölkələr arasında gedən mübarizələr nəticəsində (XVII əsrin ortalarında) Küveyt Əl-Həsa, Cənubi İraq, Bəhreyn ilə birlikdə Bəsrə vilayətinin tərkibində Osmanlının nəzarəti altına düşüb. Vahid Küveyt əmirliyinin yaranması isə XVIII yüzilliyin ortalarına təsadüf edir.

XIX əsrin sonlarında İngiltərə körfəz bölgəsində apardığı ekspansiya siyasəti nəticəsində bir sıra əmirliklərlə müqavilələr bağlayıb. 1899-cu ilin 23 yanvarında isə Küveytlə gizli müqavilə imzalamaqla ölkəyə tam nəzarəti ələ keçirib. 1914-cü ilin noyabrında Küveyt Britaniya protektoratlığı altında müstəqil əmirlik elan edilib. Birinci Dünya müharibəsi illərində Küveyt İngiltərənin tam nəzarəti altında olub. İkinci Dünya müharibəsindən sonra Küveytdə milli-azadlıq hərəkatının qüvvətlənməsi nəticəsində 1961-ci il iyunun 19-da ölkə müstəqilliyini elan edib. 1990-cı il avqustun 2-də İraqla Küveyt arasında yaranmış münaqişə İraqın təcavüzü ilə nəticələnib və Küveyt İraqın 19-cu əyaləti elan edilib. 1991-ci ilin əvvəllərində baş vermiş 42 günlük müharibədən və İraqa olan təzyiqlərdən sonra dövlətin müstəqilliyi yenidən bərpa edilib.

Fars körfəzinin sahilində yerləşən Əl-Küveyt ölkənin paytaxtı və ən böyük şəhəridir. Şəhərin əsası XVII əsrdə qoyulub. Ölkənin bir çox hökumət idarəsi, parlament, iri banklar, böyük şirkətlərin binaları, ticarət mərkəzləri bu şəhərdə yerləşir. Ölkə əhalisinin təqribən 83%-i paytaxt Küveyt şəhərində yaşayır. Paytaxtın ticarət və nəqliyyat ehtiyaclarını Küveyt Beynəlxalq hava limanı, Mina əl-Şuayik (Şuayik) və Mina əl-Əhmədi limanları təmin edir.

1950-ci ildən etibarən hər ilin 25 fevralı Küveytdə Milli Bayram Günü kimi qeyd olunur. Digər müsəlman ölkələri kimi, burada da Ramazan və Qurban bayramları təntənə ilə qeyd edilir. Eyni zamanda qəndillər, Həzrət Məhəmmədin (s) doğum günü xüsusi qeyd olunan əlamətdar hadisələrdəndir.

Hazırladı: **Tural Vəlizadə**

# QISA-QISA




*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə dünyada yayılmış koronavirus (COVİD-19) pandemiyasının qarşısının alınması məqsədilə martın 24-dən etibarən ölkə ərazisində xüsusi karantin rejimi elan edilmişdir. Bununla əlaqədar ölkə üzrə tətbiq olunan məhdudiyyət və tövsiyələrə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də (DQİDK) vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılmış, ancaq DQİDK-nın "qaynar xətt"inə, "www.scwra.gov.az" rəsmi saytının "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılmış, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilmişdir. Bununla belə, Dövlət Komitəsi pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini davam etdirmişdir. Bununla bağlı Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Bu qəbildən olan maarifləndirmə tədbirləri cari ay ərzində:*

**8 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Quba Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində;

**10 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Lerik Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində videokonfrans; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəranda fəaliyyət göstərən dini icma sədrləri və din xadimləri ilə;

**11 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə Lerik rayonunda fəaliyyət göstərən dini icma sədrləri və din xadimləri ilə;

**15 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Milli Qurtuluş Günü ilə əlaqədar;

**16 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "İnsan Hüquqları Aylığı" çərçivəsində;

**20 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə təşkil olunmuşdur.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin qatıldığı videokonfraslarda Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar haqqında məlumat verilmiş, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələrdən danışılmışdır. Həmçinin çıxışlar zamanı koronavirus pandemiyasına (COVID-19) qarşı ölkəmizdə görülən qabaqlayıcı tədbirlər və həyata keçirilən işlərə diqqət çəkilmişdir. Dəfn mərasimləri istisna olmaqla, yas mərasimlərinin keçirilməsinin qadağan edildiyi diqqətə çatdırılmış, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qaydalarına və Qafqaz Müsəlmanları İdarəsinin tapşırıq və tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanmışdır.

# BİLİRSİNİZMİ?

**1 iyul** – 1751-ci ildə dünyanın ilk “Ensiklopediya”sının birinci cildi Fransada işıq üzü görmüşdür. 1747-ci ildə ortaya çıxan layihənin təşəbbüskarı, parisli naşir Lui Breton dövrün məşhur filosofu və maarifpərvər yazıçısı Deni Didrodan bu işin təşkilatçısı olmasını istəmişdir. Məmnuniyyətlə razılıq verən Didro ömrünün 25 ilini ensiklopediyaya həsr etmişdir. Sonradan redaktorlardan biri də Didronun həmfikiri, alim Jan d'Alamber olmuşdur. Ensiklopediyanın tərtibində İntibah dövrünün ən görkəmli mütəfəkkirləri də iştirak etmişlər: Fransua Mari Volter, Pol Holbax, Jan-Jak Russo, Şarl Lui Monteskyö, Klod Adrian Helvetsi və başqaları.

**3 iyul** – 1528-ci ildə Roma Papası VII Klement “Kapusin rahibləri” ordenini qanuniləşdirmişdir. Kapusinlər yoxsul həyatı üstün tutur, sabit gəlirlərdən imtina edir və təsadüfi ianələr hesabına yaşayırdılar. Onlar saqqal saxlayır, qəhvəyi rəngdə cod parçadan toxunma rahib paltarı və səndəl geyinir, kəndirdən kəmər bağlayırdılar. Cübbələrinin yuxarı hissəsi sivri olduğundan, onları kapusin adlandırırdılar. Rahiblər asketik həyat tərzi keçirir, fəal təbliğat və xeyriyyə işləri ilə məşğul olurdular. XVII əsrdə İtaliyada vəba epidemiyası zamanı xəstələrə qayğı göstərən 400-dən çox kapusin həyatını itirmişdir. Bu gün dünyada kapusinlərin ümumi sayı 14 minə yaxındır.

**5 iyul** – 1439-cu ildə Florensiyada XVII Ümumdünya Kilsə Məclisinin iclasında uzun danışıqlardan sonra Papa IV Yevgeni, Bizans imperatoru VIII İohann Paleoloq və 33 pravoslav iyerarxı arasında Romanın rəhbərliyi ilə pravoslav və katolik kilsələrinin birləşdirilməsinə dair akt imzalanmışdır. Roma onun köməyi ilə Qərb Kilsəsinin parçalanması nəticəsində sarsılan papa hakimiyyətinin nüfuzunu gücləndirməyə ümid edirdi. Konstantinopol isə Osmanlı imperiyası ilə mübarizədə Qərbin köməyindən istifadə etmək istəyirdi. 1453-cü ildə Konstantinopolun türklər tərəfindən fəthindən sonra Florensiya ittifaqı unudulmuşdu.

**6 iyul** – Tailandda Asalha Puca günü qeyd olunur. Asalha Puca ay təqvimi üzrə hər ilin 8-ci ayında bədirlənmiş Ayın ilk günündə Tailandda keçirilən əsas buddist bayramlarımdan biridir. Bu, Buddizmin əsasının qoyulduğu gün hesab olunur və Buddanın oyanış baş verdikdən sonra ilk xütbəsini oxuduğu günün şərəfinə qeyd edilir. Bu xütbəsində o, asketik həyat tərzi sürən yoqlara dünyanın nizamı barədə fikirlərini açmışdı. Asalha Puca bayramı köklərə, keçmişə, Buddanın illər əvvəl söylədiyi sözlərə, onun dərin mərhəmətinə və başqalarına kömək etmək istəyinə yönəlmə ənənəsidir. Həmin gün Tailanddakı buddistlər səhər tezdən məbədlərə gələrək rahiblərə yemək və zəruri şeylər təqdim edirlər. Bütün əhəmiyyətli mərasimlər insanlara ibadətlərdə “yol göstərən” hörmətli rahiblərin rəhbərliyi altında keçirilir.

**6 iyul** – Tailandda orucluğun və 3 ay davam edən yağış mövsümünün başlanması münasibətilə “Vassa” bayramı qeyd olunur. Din xadimləri, rahiblər üçün meditasiya dövrü başlayır və əksəriyyəti üç ay məbədlərini tərk etmirlər. Sadə insanlar isə əyləncəli Şam festivalını – “Vassa”nı qeyd edirlər. Bu festivalın tarixi qədim dövrlərə gedib çıxır. Yağış mövsümündə buddist rahiblər həşəratlara və tumurcuqlara xətər yetirməmək üçün məbədlərdən kənara ayaq basmırdılar.

**6 iyul** – XIV Dalay Lamanın doğum günüdür. Bu, Avropa təqvimi əsasında qeyd olunan yeganə buddist bayramıdır. Buddistlər XIV Dalay Lamanı Avalokiteşvaranın dünyadakı təcəssümü kimi görürlər. Bu gün Tibet buddistləri və onu mənəvi lider kimi tanıyan bütün Tibet Buddizmi ardıcılları tərəfindən qeyd olunur. Həmin gün ibadətgahlarda Dalay Lamanın uzunömürlü olması üçün dualar oxunur, ona ən xoş arzularını çatdırırlar.

**9 iyul** – Babın qətlə yetirilməsinin ildönümüdür. Əsl adı Seyid Əli Məhəmməd Şirazi olan Bab tarixdəki Babilər hərəkatının rəhbəri və Bəhailikdəki ilk peyğəmbərdir. Özünü Allah Vəhyinin müstəqil daşıyıcısı və ondan sonra gələcək daha böyük Allah Elçisinin müjdəçisi elan etmişdi. İranın müxtəlif əyalətlərində babilərin kütləvi şəkildə artması və hökumət qüvvələrinə qarşı çıxmaları baş vəzir Mirzə Tağı xan Əmir Kəbiri təşvişə salır və o, 1850-ci ildə Babın edamına fərman verir. Bab iyulun 9-da 30 yaşında edam olunur. Bəhailər müqəddəs saydıqları həmin gündə hər cür işdən uzaq dururlar.

**10 iyul** – Zərdüştilər “Qahambar Ardvisura Anahita” bayramını qeyd edirlər. Bu, yeddi böyük Qahambar bayramlarından biridir. İnsanın təbiətlə qovuşmasını və harmoniyaya dalmasını ifadə edir. Zəriflik, sevgi və gözəlliyin təcəssümü olan ilahə Ardvisura Anahitaya həsr edilmişdir.

**11 iyul** – Ümumdünya Əhali Günüdür. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı - Əhali Fondu təsis edib. Bu gün ilk dəfə 1990-cı ildə 90-dan artıq ölkədə qeyd edilib. Məqsəd ailə planlamasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

**11 iyul** – 1974-cü ildə Çinin Shaanxi əyalətinin Xi'an bölgəsində “Terrakota ordusu” tapılmışdır. Terrakota ordusu ilk Çin imperatoru Sin Şi Xuandinin ordusunu təsvir edən heykəllərdir. Onlara həmçinin “yeraltı heykəllər ordusu və ya torpaq əsgərlər” də deyirlər. Heykəllərin imperator Sin Şi Xuandini axirət dünyasında qorunmaq üçün hazırlandığına inanılır. E.ə 210-209-cu ildə torpağa basdırılıb. Boyları 1.83 və 1.93 santimetr arasında dəyişən heykəl əsgərlərin hər birinin üz ifadəsi fərqlidir. Heykəllərə əsasən döyüşçü, döyüş arabası və süvari atlı daxildir.

**14 iyul** – 1099-cu ildə Birinci Səlib yürüşünün iştirakçıları Qüdsə hücum etmişlər. Fransız hersoq Qotfrid Bulonskinin rəhbərliyi altındakı 1200-1300 cəngavər və 12000 piyada əsgərdən ibarət olan ordu taxta körpüləri divarlara dayayaraq şəhərə hücum çəkmişdir. Şəhərin qala divarlarının dağıldığını görən Davud qalası qarnizonunun əmiri təslim olmuş və şəhərin qapılarını açmışdır. Şəhərin süqutundan sonra Qotfrid Bulonski yeni qurulmuş Qüds Krallığının hökmdarı olmuşdur.

**15 iyul** – Gənclərin Ümumdünya Bacarıqları Günüdür. BMT Baş Assambleyası tərəfindən 2014-cü ilin dekabr ayında təsis edilmişdir. Məqsəd gənclərin bacarıqlarının inkişafına investisiya qoyuluşunun vacibliyi barədə məlumatlılığın artırılması, onların işsizlik və məhdud məşğulluq problemlərinin həlli üçün sosial-iqtisadi şəraitlərinin yaxşılaşdırılmasıdır.

**16 iyul** – 1054-cü ildə Müqəddəs Sofiya kilsəsində Papanın səfirləri Konstantinopol patriarxı Mixail Kirularinin Kilsədən uzaqlaşdırıldığını elan etdilər. Patriarx isə Kilsə Məclisini yığaraq Roma Papasının nümayəndələrini lənətlədi və Roma Kilsəsi ilə bütün əlaqələrin kəsilməsi haqqında sərəncam verdi. Bununla da, Xristianlıq katolik və pravoslavlığa bölündü. Şərq (yunan) Kilsəsi ortodoks (pravoslav), Qərb (latın) Kilsəsi isə katolik adlandırıldı.

**18 iyul** – Beynəlxalq Nelson Mandela Günüdür. Bu gün 2009-cu ilin noyabr ayında BMT Baş Assambleyası tərəfindən Afrikanın keçmiş Prezidenti Nelson Mandelanın sülh və azadlıq uğrunda mübarizəsinə ehtiram əlaməti kimi təsis edilib. Cənubi Afrika Respublikasının ilk qaradərili Prezidenti Nelson Mandela irqi ayrı-seçkiliyin hökm sürdüyü dövrdə insan hüquqları uğrunda ən fəal mübariz olub və bu səbəblə həyatının 26 ilini həbsxanada keçirib.

**22 iyul** – Milli Mətbuat Günüdür. Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabidir. Böyük çətinliklərdən sonra o, Bakıda ana dilində “Əkinçi” qəzetinin nəşri üçün icazə almışdır. Qəzetin ilk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxmış və bütün Qafqazda əks-səda doğurmuşdur. 1875-1877-ci illər ərzində 56 nömrəsi işıq üzü görmüş qəzet öz mütərəqqi ideyaları ilə Rusiya hakim dairələrini narahat etmiş və bu səbəbdən də iki il sonra bağlanmışdır.

**26 iyul** – Esperanto Günüdür. Uydurma dil hesab edilən esperantonun yaradıcısı Varşava sakini, okkulist Lazar Markoviç Zamenhofdur. Uşaqlıqdan bütün insanların bir-birini anlaya biləcəkləri dildə danışmasını arzulayan Zamenhof bu dili 1887-ci ildə 10 illik zəhməti nəticəsində ərsəyə gətirmişdir. Onların qonşuluğunda yaşayanların hamısı müxtəlif millətlərin nümayəndələri olmuşdur. Esperanto əlifbası latın dilinin əsasında yaradılmışdır. Buraya 28 hərf daxildir. Sözlər yazıldığı kimi oxunur. Esperantonun kökündə alman, roman, latın və yunan dilləri (bəzən slavyan-rus və polyak) durur. Dilin qrammatikasında 16 qayda var.

**27 iyul** – 1656-cı ildə Benedikt Spinoza Amsterdamdakı yəhudi icmasından qovularaq Ravvinlər Məclisi tərəfindən mürtəd elan edilmişdir. Buna səbəb onun Tövrata tənqidi yanaşması və Yaradanı kosmos, ümumbəşəri harmoniya kimi dərk etməsi olmuşdur.

**28 iyul** – 1914-cü ildə Birinci Dünya müharibəsi başlamışdır. Dörd il sürən bu müharibədə dünyanın ən böyük güc mərkəzləri iki alyansda birləşmişdi: “Antanta”da İngiltərə, Fransa və Rusiya, “Üçlər ittifaqı”nda isə Almaniya, Avstriya-Macarıstan və İtaliya (1915-ci ildə Antantanın tərəfinə keçir) var idi. Dünyanın dəyişməsinə, imperiyaların çökməsinə, yeni dövlətlərin meydana gəlməsinə səbəb olan Birinci Dünya Müharibəsində 10 milyona yaxın insanın öldüyü, 50 milyondan artıq insanın yaralandığı, milylarla insanın isə əsir və ya itkin düşdüyü təxmin edilir.

**30 iyul** – İnsan alverinə qarşı beynəlxalq mübarizə Günüdür. İnsan alverinin mahiyyəti barədə məlumatlılığın artırılması, beynəlxalq ictimaiyyətin diqqətinin qurbanların üzləşdiyi problemlərə yönəldilməsi məqsədilə BMT Baş Assambleyasının 2013-cü il 18 dekabr tarixli qətnaməsinə əsasən təsis olunmuşdur.

**30 iyul** – Beynəlxalq Dostluq Günüdür. BMT Baş Assambleyası tərəfindən 2011-ci il mayın 4-də təsis edilmişdir. Baş Assambleya dostluğun xalqlar, ölkələr, mədəniyyətlər və ayrı-ayrı şəxslər arasında sülhün təmin edilməsi üçün səylər göstərməyə ruhlandıra biləcəyini vurğulayaraq BMT üzvü olan dövlətlərə bu nəcib hissi fəal təbliğ etməyə çağırmışdır.

**30 iyul** – Bu il Ərəfə Gününə təsadüf edir. Ərəfə günü zilhiccə ayının 9-cu gününə deyilir. Zəvvarlar həmin gün Məkkə kənarındakı Ərəfat çölündə olduqları üçün ona bu ad verilib. Ərəfat Məkkə şəhərindən 20 km cənub-şərqdə, Məkkə-Taif yolunun kənarında yarımdairəvi təpələrlə əhatələnmiş ərazinin adıdır. Rəvayətə görə, Adəm peyğəmbərlə Həvva Cənnətdən qovulduqdan sonra bir-birini axtararaq xeyli gəzib-dolaşmış və nəhayət, Ərəfatda görüşmüşdülər. Başqa bir rəvayətə görə, mələk Cəbrail İbrahim peyğəmbərə həcc əməllərini burada başa salmış və İbrahim peyğəmbər “bildim, anladım” deyə cavab vermişdi. Ərəfə günü İslamda mübarək günlərdən sayılır. Həmin günün gecəsini namaz və dua ilə keçirmək, gündüz isə oruc tutmaq savabdır.

**31 iyul-1avqust** - Azərbaycanda Qurban bayramıdır. Qurban İslam dininin iki ən əsas bayramlarından biridir.

# PRİVOLNOYE – CƏLİLABADIN YƏHUDİ KƏNDİ

Privolnoye Cəlilabad rayonunun yaşayış məntəqələrindən biridir. Kənd coğrafi mövqeyinə görə rayonun cənub-şərqində, Göytəpə çayının sahilində yerləşir. Bakı quberniyasının Lənkəran qəzası üzrə əhalinin 1859-1864-cü illər üzrə kameral siyahıyaalınması zamanı Privolnoye kəndində 419 ev, 2133 nəfər (kişi 1061, qadın 1072), 1 yanvar 1904-cü ildə 490 təsərrüfat, 2589 nəfər (kişi 1195, qadın 1394), 2009-cu ildə 4484 nəfər, 2014-cü ildə 1325 təsərrüfat və 4805 nəfər qeydə alınmışdır. Hazırda kənddə 5500 nəfərdən çox əhali yaşayır (Sabir Nəsiroğlu. Muğan salnaməsi. B., 2015, səh. 59).

Privolnoye paralel toponimdir, yəni gətirilmə. Belə ki, Stavropol diyarının Privolnoye kəndindən olan ruslar yeni məskunlaşdıqları yaşayış məntəqəsini özlərinin doğma kəndlərinin adı ilə Privolnoye adlandırmışlar. "Privolnoye" sözünün rus dilində lüğəvi mənası "azad", "sərbəst" deməkdir. Maraqlıdır ki, ölkəmiz müstəqillik qazandıqdan sonra rus mənşəli toponimlər dəyişdirilsə də, Privolnoye kəndinin adı saxlanmışdır. Bu gün respublikamızın cənub-şərq bölgəsində yeganə rus mənşəli toponim Privolnoyedir.

Privolnoye kəndi ilə bağlı digər maraqlı məqam odur ki, burada yaşayan ruslar dini inanclarına görə pravoslav yox, subbotnik olmuşlar. Subbotniklər rus təriqətçilərindən idilər. Təriqətin əsasında "Köhnə Əhd" durur. Subbotnik təriqəti formaca İudaizmə (Yəhudilik) daha yaxın olduğundan, buranın əhalisi xristian yox, iudaist adlandırılmışdır. Məhz buna görə də Privolnoye rus deyil, yəhudi kəndi kimi tanınmışdır.

Səidəli Kazımbəyoğlu 1869-cu ildə qələmə aldığı "Cavahirnameyi – Lənkəran" kitabında Talış xanlığının mahalları, o cümlədən Muğan mahalları, mahalın rus kəndləri haqqında da məlumat vermişdir. O yazır: "Üçüncü kənd Privolni adlanan cühudlar kəndidir. Göytəpənin yaxınlığında yerləşir. 390 ailədirlər. Cühud məzhəbindəndirlər" ("Səidiyyə". B., 2005, səh. 46).

Yaqub Abbasovun "Cəlilabad" kitabından oxuyuruq: "O vaxtlar bir nəfər Cəlilabad rayonunun Privolnoye kəndindən kəbin kəsdirmək üçün Göytəpədə (Prişibdə) sığınacaq tapmış Axund Mir Daməd Ağanın evinə gəlir.

Axund deyir ki, Kazımabad kəndində böyük bir alim var, bizə ustad misalındadır. O olan yerdə mən kəbin kəsə bilmərəm, sən Kazımabada get. Həmin adam müctəhid şeyx Əli Əsgər Lənkəraninin sığınacaq tapdığı Kazımabad kəndinə gəlir və ondan xahiş edir ki, kəbin kəssin. Şeyx soruşur ki:

- Bala, sən hardan gəlmisən?

- Mən cühuddən (Privolnoye kəndinə o vaxtlar belə deyirdilər) gəlmişəm" (B., 2014, səh. 296).

Tədqiqatçı-jurnalist Sabir Nəsiroğlu "Muğan salnaməsi" kitabında yazır: "Privolnoye kəndində subbotniklərin 4 sinaqoqu və 4 dini məhəlli məktəbi fəaliyyət göstərirdi. Kənd əhalisinin (1873-cü ilin statistik məlumatlarına əsasən), demək olar ki, 94 %-i qədim yəhudi (ivrit) dilində yazıb oxumağı bacarırdı".

Bütün bunlar Privolnoyenin vaxtilə yəhudi kəndi olduğunu bir daha sübut edir. Təsadüfi deyil ki, ölkəmiz müstəqillik qazandıqdan sonra İsrailin Azərbaycandakı səfirləri bir neçə dəfə burada olmuşlar. Bu gün kəndin əhalisi azərbaycanlılardan ibarətdir. Burada az sayda rus yaşamaqdadır. Onların çoxu müstəqillikdən sonra Rusiya, İsrail, ABŞ, Almaniya və digər ölkələrə köçmüşlər.



Privolnoye kəndinin əsası 1838-ci ildə qoyulsa da, kəndin ərazisi qədim yaşayış məskənlərindən olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən, Privolnoye kəndi ərazisində ölkə əhəmiyyətli arxeoloji abidə kimi tunc dövrünə aid kurqanlar (inv: 901), Bolukleyssk kurqanı (inv: 898), Dəmir dövrünə aid Mazanski kurqanı (inv: 899), Balanovski kurqanı (inv: 900) və Son Tunc-İlk Dəmir dövrünə aid nekropol (qəbiristanlıq) qeydə alınmışdır.

Privolnoye kəndinin əhalisinin əsas məşğuliyyəti taxılçılıq, üzümçülük və maldarlıq olmuşdur. Sovet dönəmində burada "Qırmızı partizan" sovxozu fəaliyyət göstərmişdir. Sovxozun briqadiri Nüsrət Məmmədov taxılçılıq sahəsində əldə etdiyi yüksək göstəricilərə görə SSRİ və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş və Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülmüşdür. Sovet hakimiyyətindən (1920-1991) öncə privolnoyelilərin əsas məşğuliyyəti suval (kirəmit) hazırlamaq olmuşdur. Bu barədə rus alimi D.Kinstenyevin 1891-ci ildə yazdığı "Kustarnaya proizvoditelnost i postoronniye zarabotki krestyan v Lenkoranskom uyezde" başlıqlı məqaləsinə istinad edən tarix elmləri doktoru, professor Qəmərşah Cavadov özünün "Talışlar" kitabında yazır: "D.Kinstenyevin yazdığına görə, XIX əsrin sonunda qəzadakı Separadi, Ərkivan, Şağlakücə və Privolnoye kəndlərində dulusçuluq sənəti ilə məşğul olurdular. Adları çəkilən talış kəndlərində ev məişət avadanlığının, Privolnoye kəndində isə əsasən suval hazırlanması ilə məşğul olunurdu. Mənbənin verdiyi məlumata görə, Lənkəran qəzasındakı Privolnoye kəndində sifal (suval – İ.Ş.) hazırlayan 7 zavod fəaliyyət göstərirdi".

Privolnoye kəndində sosial obyektlərdən 2 tam orta məktəb, musiqi məktəbi, kitabxana, klub, tibb məntəqəsi, 3 məscid, poçt, mağazalar, dükanlar, ictimai iaşə obyektləri və digərləri fəaliyyət göstərir.

Kənddə ilk məktəb 1873-cü ildə açılmışdır. Məktəbin ilk müəllimi, eyni zamanda direktoru Rusiya imperiyasının "yüksək dərəcəli pedaqoqu" sayılan D.İ.İvanov olmuşdur. O, 1878-1880-ci illərdə "Vətənşünaslıq" ("Rodinovedenie") adlı dərslik hazırlamış və təlim zamanı ondan istifadə edir. 1889-cu ildə kənd icması burada yeni məktəb binası tikib istifadəyə verir (Mahmudağa Qasımov. Cəlilabadın tarixi, etnonim və toponimləri. B., 2014, səh. 288).

Privolnoye kəndində icra nümayəndəliyi və bələdiyyə fəaliyyət göstərir. İcra nümayəndəliyi və bələdiyyə təkcə Privolnoye kəndini əhatə edir.

Bu kənd özünün ziyalıları ilə də tanınır. Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü olmuş Nüsrət Məmmədov, Əməkdar müəllim Lev Vasilyeviç, Əməkdar mədəniyyət işçisi Lyubov Danilova, SSRİ maarif əlaçısı, qabaqcıl maarif xadimi Abusəməd Səmədov və digərləri Privolnoyedə dünyaya göz açmışlar.

**İldırım ŞÜKÜRZADƏ**
*Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin müəllimi, tədqiqatçı-tarixçi*

# İSRAİL 2500-DƏN ÇOX NADİR İSLAM MƏTNİNİ İNTERNETƏ YERLƏŞDİRƏCƏK

İsrail Milli Kitabxanası İslam kolleksiyasına məxsus 2500-dən çox nadir kitab və əlyazmanın ictimailəşdirilməsi layihəsini başlatdığını elan edib. Kitabxananın veb saytında yerləşdiriləcək bu elektron nüsxələrə giriş pulsuz olacaq. Layihə "Arcadia" Xeyriyyə Fondunun qrantı əsasında həyata keçirilir.

Keyfiyyətli skan edilmiş şəkillərin nümayişi üçün üç dildə - ərəb, ivrit və ingilis dillərində yeni internet platforması yaradılacaq. Ayrı-ayrı mətnlərin və illüstrasiyaların təsvirləri ərəb və ingilis dillərində təqdim ediləcək. İstifadəçilər kolleksiyadakı ayrı-ayrı mətnləri axtarmaq üçün rahat vasitələr və bütün bölmələrin ətraflı təsvirlərini də əldə edəcəklər.

Platformanın yaradılması işinin üç il çəkəcəyi gözlənilir. Yeni elektron kolleksiyaya IX əsrdən bəri İslam dünyasının müxtəlif yerlərində yaradılan mətnlər daxil ediləcək. Məsələn, bunların arasında XV əsr görkəmli fars mistik-şairi Əbdürrəhman Caminin (Nurəddin Cami kimi məşhurdur) "Töhfətül-əhrar" poemasının nəfis İran əlyazma nüsxəsi var. Gələcək kolleksiyanın digər eksponatı isə X əsrə aid, 37x68 mm ölçülü Quranın miniatür əlyazma nüsxəsidir.

İsrail Milli Kitabxanasının İslam və orta əsrlər kolleksiyasında ərəb, fars, türk dillərində minlərlə əlyazma və nadir kitab var. Kitabxana bunun çox hissəsini ərəb və yəhudi ədəbiyyatı üzrə tanınmış mütəxəssis, əslən Qüdsdən olan Abraham Şalom Yəhudanın (1877-1951) vəsiyyətinə əsasən almışdır. O, XX əsrin birinci yarısının ən məşhur İsam əlyazmalarının kolleksionerlərindən sayılırdı. Onun kolleksiyasına İslam ədəbiyyatının bütün əsas janrlarından və istiqamətlərindən olan əsərlər, o cümlədən Məmlük sultanlığı, Moğol və Osmanlı imperiyasının kral kitabxanalarından olan illüstrasiyalı nüsxələr daxil idi.

# İNTELLEKTUAL KÖNÜLLÜ KİMDİR?

Kimə könüllü deyildiyini çoxları bilir, yəqin ki. Bəs intellektual könüllü kimdir və o, nə işlə məşğul olur?

Bu konsepsiya ABŞ-da ötən əsrin ortalarında yaranmışdır. Yəqin ki, Amerika filmlərində pulsuz xidmət göstərən hüquqşünaslar haqqında eşitmisiniz. Buna "pro bono" da deyilir. Hər hansı bir könüllü küçədəki, təbiətdəki zibilləri təmizləyə, ağac əkə, qocalar evlərinə baş çəkə bilər və s. İntellektual könüllü isə öz peşəkar bacarıqlarına uyğun pulsuz kömək edir: hüquqşünasdırsa, müqavilələri yoxlaya; dizaynerdirsə, loqotiplər yarada; yaradıcı insandırsa, bir ideya ortaya qoya bilər.

Qərbdə bu istiqamət hazırda çox inkişaf edib. Orada belə bir format inkişaf, marketinq və ya fandrayzinq (vəsait cəlb etmək) strategiyaları ilə əlaqəli olan qeyri-kommersiya təşkilatlarına ciddi strateji məsələlərin həllində kömək edir. Məsələn, hansısa xeyriyyə fondu gəlinlərin sayını artırmaq və yeni hədəf auditoriyasına çatmaq məqsədilə fandrayzinq strategiyası üçün müraciət edir. Könüllülər komandası ona uyğun layihə işləyib hazırlayır, bununla fondun gəlirlərin artmasını təmin edir.

# QMİ: KORONAVİRUSLA BAĞLI QAYDALARA ƏMƏL ETMƏYƏN DİN XADİMLƏRİ İLƏ ƏLAQƏDAR MÜVAFİQ ÖLÇÜ GÖTÜRÜLƏCƏK




Bütün dünyada sürətlə yayılan koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması və onun fəsadlarının qarşısının alınması məqsədilə dövlətimiz tərəfindən bütün mümkün tibbi-sanitar və ictimai təhlükəsizlik tədbirləri həyata keçirilir. Dini mərkəz – Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ölkəmizdə karantin gündəmə gələn ilk vaxtlardan koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahların fəaliyyətini müvəqqəti dayandıraraq, kütləvi ibadət mərasimlərinə ara verilməsi barədə tapşırıq və tövsiyələrini verdi.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda deyilir ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara uyğun olaraq dəfn mərasimləri məhdud sayda, yaxın qohumların iştirakı və sosial məsafəyə riayət edilməklə həyata keçirilməlidir. Qapalı, yaxud açıq məkanlarda on nəfərdən çox şəxsin iştirakı ilə ehsan verilməsi, yas məclislərinin təşkili və orada din xadimlərimizin iştirakına icazə verilmir. Tövsiyə sənədimizdə bu məqamlar birmənalı şəkildə əksini tapıb. Bütün din xadimlərinə bununla bağlı tərəfimizdən tapşırıq verilib. Bu tövsiyə qərarlarının icrasına QMİ nəzarət edir, tapşırığın yerinə yetirilməsinə yerlərdəki qazilərimiz və səlahiyyətli nümayəndələrimiz məsuldurlar və bu barədə QMİ-yə mütəmadi məlumat verirlər. Bu müvəqqəti çətinlik dövründə tövsiyələrimizi nəzərə almayanlar, təəssüf ki, mövcud vəziyyətin məsuliyyətini dərk edə bilməyənlərdir. Qayda və tövsiyələrə əməl etməyən din xadimləri ilə bağlı hal aşkarlanarsa, QMİ tərəfindən müvafiq ölçü götürüləcək.

QMİ bir daha öz tövsiyələrini diqqətə çatdırır və əmindir ki, dindarlarımız və cəmiyyətimiz hər birimiz üçün təhlükəli olan məqamda tibbi-profilaktik tədbirlərə riayət etməklə yanaşı, vacib saydığımız tövsiyələri anlayışla qarşılayacaq. Ümid edirik ki, Allah-Təala tezliklə xalqımızın üzərindən bu bəlanı dəf edəcək, səbat və rifahımız bərqərar olacaq, İnşallah.

Bu çətin və məsuliyyətli dövrdə xalqımızın pandemiya ilə mübarizəsində böyük əzm və mətanət nümayiş etdirən həkimlərimizə, təhlükəsizliyimizin keşiyində duran polis işçilərinə dərin minnətdarlığımızı bildirir, onlara şərəfli fəaliyyətlərində Uca Allahdan uğurlar diləyirik. Bu mürəkkəb dövrdə din xadimləri də öz vəzifələrini böyük məsuliyyətlə yerinə yetirirlər. Öz sağlamlıqlarını riskə ataraq vəfat etmiş insanları üçün şəriətlə mühüm olan dini vacibatların yerinə yetirilməsini gecəli-gündüzlü həyata keçirməklə fədakarlıq nümayiş etdirirlər. Din xadimləri Azərbaycan xalqının xidmətindədir və bundan şərəf duyur.

**Uca Allah Azərbaycanı hifz etsin.**

## SƏUDİYYƏ ƏRƏBİSTANI HƏCC ZİYARƏTİ İLƏ BAĞLI QƏRAR VERDİ

Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi müsəlmanların müqəddəs Həcc ziyarəti ilə əlaqədar qərarı açıqlayıb.

Krallığın müasir tarixində ilk dəfə olaraq ziyarət çox məhdud sayda və Səudiyyə Ərəbistanında olan yerli və əcnəbi zəvvarlar tərəfindən yerinə yetiriləcək. Xarici ölkələrdən Həcc ziyarətinə gələnlər olmayacaq.

Nazirliyin bəyanatında bildirilir: "Səudiyyə Ərəbistanı Həcc və Ümrə ziyarətinə gələn milyonlarla müsəlmana xidmət etməkdən qürur duyur, hər il onların təhlükəsizliyini təmin etmək üçün tədbirlər həyata keçirir. Biz qüdrətli Allaha dua edirik ki, ölkələrimizi pandemiyadan qorusun".

Səudiyyə Ərəbistanında 161 min nəfərin COVID-19-a yoluxması və 1300-dən çox insanın vəfat etməsi qərarın verilməsinə təsirini göstərib. Lakin çox məhdud sayda zəvvarın sayı açıqlanmayıb.

## VATİKAN YENİ GENİŞMİQYASLI MEDİA LAYİHƏSİNƏ START VERİB



Vatikanda yeni media layihəsi həyata keçirilir. İyunun 8-də fəaliyyətə başlayan "Vativision" platformasında xristian məzmunlu seriallar, bədii və sənədli filmlər təqdim olunacaq. Onlayn nümayiş başlanğıcda yalnız İtaliyaya tətbiq ediləcək. "wiara.pl" katolik nəşri xəbər verir ki, sözügedən internet xidməti Amerikanın internet icarə şəbəkəsi olan "Netflix" modeli əsasında qurulub.

Keyfiyyətli xristian məzmunu təqdim etmək niyyətində olan yeni platformanın rəhbəri italiyalı Luka Tommassinidir. Layihənin yaradıcısı isə artıq uzun müddətdir, Müqəddəs Taxt-Tac ilə əməkdaşlıq edən "Officina de la Comunicazione" media şirkətidir. Vatikan "Vativision"un köməyi ilə xristian dəyərlərinə etiqad edən beynəlxalq auditoriyaya xitab etmək istədiyini bildirir.

## QUMRU QUŞU FORMASINDA "BÜTÜN DİNLƏRİN MƏBƏDİ" İNŞA EDİLİB

Yava adasında yaşayan tənha entuziast ömrünün neçə ilini burada qumru quşu formasında olan "Bütün dinlərin məbədi"nin inşasına həsr edib. Onun əsəri turistlər və zəvvarlar arasında getdikcə populyarlaşır. Bu barədə "The Guardian" xəbər yayıb.

İndoneziyanın Yava adasının sakini, dindar xristian Daniel Aləmşah 1988-ci ildə yuxusunda bir dağın zirvəsində nəhəng göyərçin formasında gözəl bir məbəd görür. İlahi səs ona bildirir ki, bütün dinlərin həqiqi möminlərinə bu məbədi tikmək üçün seçilib. Magelang cəngəlliyinə yollanan Aləmşah yuxuda gördüyü Bukit Rima dağını axtarıb tapır və əvvəllər realda görməməsinə baxmayaraq, dərhal onu tanıyır. O, bir həftə içində dağın zirvəsində torpaq sahəsi əldə edir və ancaq tikintiyə icazə almaq üçün uzun yola başlayır. Əzmi və səyləri nəticəsində bütün bürokratik maneələri aşan Aləmşah sonrakı 10 il ərzində yavaş-yavaş, lakin inadla irəliləyən tikinti işlərinə rəhbərlik edir.



İşlərin əsas hissəsi tamamlandıqda çobanların və yoldan keçənlərin təəccüblü baxışları başında tac olan, quyruğu açılmış, dimdiyini vüqarla qaldırmış quşa yönəlmişdi. Aləmşah qumru quşu obrazını canlandırmaq üçün var qüvvəsi ilə çalışsa da, məbəd yerli əhali arasında və ətraf ərazilərdə "Toyuq kilsəsi" mənasını verən "Geredja Ayyam" adı ilə məşhurlaşdı.

Ya lağa qoyulduğuna, ya da iflasa uğradığına görə Aləmşahın əlləri yanına düşür, məbəddəki tamamlanma işləri dayandırılır və ərazi tezliklə kol-kos ağuşuna alır. Tədricən məbəd dağılmağa başlayır, yaradıcısı ilhamını itirir və ümidsizlik uçurumuna düşür. Ancaq sonrakı 15 il ərzində yaxınlıqda yerləşən və dünyanın ən böyük buddist məbədi olan Borobudur ziyarətçiləri arasında tənha zahidin səyləri ilə yaradılan bu heyrətamiz tikili haqqında xəbərlər getdikcə daha çox yayılmağa başlayır. Turist və zəvvarlar tərk edilmiş, xaraba qalmış "Toyuq kilsəsi"nə daha çox maraq göstərərək buraya axın edirlər. Bundan ruhlanan Aləmşah tərk edilmiş məbədinə qayıdır və hətta giriş üçün simvolik məbləğ almağa başlayır. Vəsait axını və ən əsası da ziyarətçilərin onun yaradıcılığına səmimi heyranlığı onu ibadətgahın tamamlanmasına, bəzədilməsinə və abadlaşdırılmasına ruhlandırır.

Bu gün "Toyuq Kilsəsi"nin, demək olar ki, bütün otaqları gözəl plitələrlə bəzədilib, qübbəsi bulud təsvirləri ilə rənglənib, divarları İndoneziya mifologiyasından mənzərəli süjetlərlə bəzədilib. Məbədin yeraltı hissəsində 12 dua zalı təşkil edilib. Ziyarətçilər günəşin nəhəng qumru quşunun taclı başında görmək üçün günün erkən saatlarında buraya gəlirlər. Məbədin arxa hissəsində, quşun quyruğunun altında kiçik bir kafe də var.

# 85 İLLİK YUBİLEYİNDƏ DALAY LAMAYA MANTRALARDAN İBARƏT ALBOM HƏDİYYƏ EDİLƏCƏK

Yeni zelandiyalı buddist Junel Kunin əvvəllər də XIV Dalay Lamanın ofisi ilə əlaqə yaradaraq Tibet ruhani liderinin mantraları və dini nəğmələrinin müşayiətində bir musiqi albomu yazmağı təklif etmişdi. Ancaq ona nəzakətlə rədd cavabı verilmişdi. Kuninin dediyinə görə, Hindistana səfərlərinin birində Dalay Lama ilə görüşür və yenə eyni sualı verir. Beş il sonra isə "Daxili Dünya" (Inner World) albomu ərsəyə gəlir. Albom ruhani liderin 85 illik yubileyi münasibətilə iyulun 6-da çıxacaq.

Dalay Lama bildirib ki, "musiqi başqa şeylərin bacarmadığı qədər insanlara kömək edə bilər; o, fərqləri aşa, bizi əsl təbiətimizə və xeyirxah qəlbimizə qaytara bilər".

11 mahnıdan ibarət layihə müvafiq kitabça ilə birlikdə buraxılacaq.

Layihədə iştirak üçün onlarla musiqiçi dəvət olunub. Kuninin həyat yoldaşı gitara və zərb alətlərində ifa edib, sintezatorları proqramlaşdırıb və nağara çalıb. Kunin albomun prodüserlərin biri qismində iştirak edib və üç mahnıya vokal əlavə edib. Mahnılar çətin şəraitdə ərsəyə gəlib. Həmin dövrdə Kuninin anası koronavirus səbəbilə xəstəxanaya yerləşdirilib. Anası xəstəliyin öhdəsindən gələ bilsə də, bir neçə həftə sonra qardaşıoğlu vəfat edib. COVID-19 məhdudiyyətləri səbəbindən ənənəvi şəkildə vida mərasimi təşkil edilməyib. Albomun son mahnısı ona həsr olunmuşdur.

"Bu layihənin əsas məqsədi insanlara kömək etməyə çalışmaqdır. Albomun satışından əldə olunan gəlir Emori Universiteti və Dalay Lamanın birgə hazırladığı beynəlxalq təhsil proqramına sərf olunacaqdır", - deyə Kunin açıqlama verib.



# QAHİRƏDƏ MÜQƏDDƏS GEORGİ KİLSƏSİNİN KATAKOMBALARI AÇILIB

Köhnə Qahirədəki İsgəndəriyyə Patriarxlığının Müqəddəs Georgi monastırında aparılan yenidənqurma işlərindən sonra Müqəddəs Georgi kilsəsinin altında yerləşən katakombalar açılıb. Bu barədə xəbər verən "Orthodox Times" qəzeti yazır ki, erkən Xristianlıq dövrünə aid abidələrdən olan katakombalar yer səviy-yəsindən təxminən on metr dərinlikdə yerləşir və az tanınır.

Katakombalar Roma tikililərinin tərkibinə daxildir. Antik dövrdə burada "Nilometr" yerləşirdi. Eramızın ilk əsrlərində Misir hökuməti onun vasitəsilə Nil çayındakı suyun səviyyəsini ölçür, sonra isə bölgə sakinləri tərəfindən ödənilməli olan vergi miqdarını müəyyənləşdirirdi. Hazırda katakombalarda ibadətlər, dini ayinlər bərpa olunub.

Qeyd edək ki, Müqəddəs Georgi kilsəsi və monastırı Qahirənin qibti adlanan hissəsində yerləşən və 1165-ci ildən bəri tanınan İsgəndəriyyə Pravoslav Kilsəsinə məxsus xristian kompleksidir. Müqəddəs Georgi kişi monastırının ərazisində Müqəddəs Georgi kilsəsi və İsgəndəriyyə patriarxının iqamətgahı yerləşir.



## ABŞ Yepiskopları Konfransı irqçiliklə mübarizənin uğursuzluqla nəticələndiyini qəbul edib

"Biz vəhşiliklərə göz yuma bilmərik və hər bir insanın həyatına hörməti təbliğ edirik", - deyə ABŞ Yepiskopları Konfransının bəyanatında qeyd olunur. Həmçinin vurğulanır ki, ölkə irqçiliklə mübarizənin öhdəsindən gələ bilməyib. Bu barədə "catholicnewsagency" xəbər verib.

Ruhani liderlər irqçiliyə qarşı mübarizənin ölkə üçün vacib olduğuna əmindirlər: "Yepiskoplar olaraq birmənalı şəkildə irqçiliyin ölkənin həyati məsələsi olduğunu bəyan edirik. İrqçilik keçmişdə qalmayıb və sonraya təxirə salına biləcək bir anlıq siyasi problem deyil. Bu, cəmiyyətin növbəti dəfə üz-üzə qaldığı real və dəhşətli təhlükədir. Kilsə üzvləri olaraq ədalət naminə aktiv hərəkətə keçməliyik, çünki fəaliyyətsizlik günah və səhv addımdır".

Qeyd edək ki, Yepiskoplar Konfransının bəyanatı afromerikalı Corc Floydun Minnepolisdə polis tərəfindən soyuqqanlılıqla qətlə yetirilməsinə reaksiya idi. Bu qətl ölkənin bir çox şəhərində etirazlara, iğtişaş və qarətlərə səbəb oldu. Qətli törədən Derek Şoven üçüncü dərəcəli adam öldürmə ittihamı ilə tutularaq həbs olundu, silahdaşları isə Minnepolis polisindən qovuldu, lakin bu, etirazları dayandırmadı.

Xalqın hiddətinə hörmətlə yanaşan yepiskoplar yenə də insanları qəzəblərini boğmağa və zorakılıqdan uzaq durmağa çağırırlar.




## İTALİYA HÖKUMƏTİ İLK DƏFƏ İMAMLARIN HƏBSXANALARA GİRİŞİNƏ İCAZƏ VERİB



İtaliya hökuməti ilə ölkənin İslam İcmaları və Təşkilatları İttifaqı arasında indiyə qədər hakimiyyət tərəfindən tənzimlənməmiş mühüm bir mövzuya dair anlaşma memorandumu imzalanıb. "Arab News"-un verdiyi xəbərə görə, memoranduma əsasən, italyan imamlar ölkənin həbsxanalarında yatan müsəlman məhbuslarla mənəvi iş apara biləcəklər.

Memorandum İtaliyanın Baş naziri Cüzeppe Konte və müsəlman icmalarının nümayəndələri arasında əldə olunan razılığın ardınca imzalanıb. İtaliya Ədliyyə Nazirliyinin məlumatına görə, ölkə həbsxanalarında yatan 60 min məhkumdan 10 minə yaxını xarici, əsasən də Mərakeş, Tunis və Rumıniyadan olan vətəndaşlardır.

Hər bir italyan həbsxanasında dövlət büdcəsindən maliyyələşən katolik sovməəsi və tamştatlı keşiş fəaliyyət göstərir, ancaq yalnız bir neçə həbsxanada müsəlmanlar üçün infrastruktur var. Buna görə də İtaliya hökuməti azadlıqdan məhrumetmə müəssisələrində konfessiyaların bərabərhüquqlu olması yolunda bir addım atdı və müsəlman liderlərə məhbuslarla işləmək imkanı verdi. Yaxın gələcəkdə həbsxanalara gələrək məhkumlara dini ayinlərin icrasında kömək etməyə və xütbələr oxumağa hazır olan yerli imamların siyahıları veriləcəkdir.

CƏMİYYƏT və DİN
№ 03 (344) / İYUN 2020-ci il

# YAZIÇI-PUBLİSİST SƏYYAD ARANIN YENİ KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Bu günlərdə yazıçı-publisist Səyyad Aranın "Başdaşı" adlı yeni kitabı nəşr olunub.

Kitabın redaktoru filologiya elmləri doktoru, professor Nadir Məmmədlidir.

Səyyad Aran çağdaş Azərbaycan nəsrində müharibə mövzusuna ən çox yer verən müəlliflərdən biridir. "Başdaşı" əsərində Qarabağ müharibəsinin Azərbaycan xalqının başına gətirdiyi faciələr, işğal olunmuş torpaqlarımız, əsir düşmüş insanlarımızın taleyi, bütün bunların cəmiyyətin həyatına təsiri, vurduğu yaralar və digər məsələlər geniş və hərtərəfli əksini tapıb.




## Kino tarixində ən populyar film qəhrəmanının adı açıqlanıb



"Empire" jurnalının oxucuları kino tarixində ən populyar film qəhrəmanı seçib.

Jurnalın tərtib etdiyi reytinqə arxeoloq İndiana Cons başçılıq edir. Filmlər seriyasında onu amerikalı aktyor Harrison Ford canlandırıb.

Populyarlığına görə ikinci və üçüncü yerlərdə müvafiq olaraq "Yad" filminin qəhrəmanı Ellen Ripli və "Dəmir adam" filminin personajı Marvel qərarlaşıb. Siyahıda sonrakı yerləri "Ulduz müharibələri" filmindən tanıdığımız Kapitan Amerika, Lyuk Skayuoker və şahzadə Leya, həmçinin Betmen, Supermen və Qara Pantera tutublar.

Qeyd edək ki, bir qədər əvvəl KİV-də "Lucasfilm" studiyasının İndiana Consun sərgüzəştləri barədə filmin davamını ekranlaşdıracağı barədə məlumatlar yayılıb. Əvvəlki seriyalarda olduğu kimi, baş rolda yenə 77 yaşlı Harrison Fordun çəkilməsi planlaşdırılır.

## Yaponiya kosmosun zibildən təmizlənməsi üçün peyk hazırlayır

Yaponiyanın "JAXA" Aerokosmik Agentliyi lazerlə kosmik zibilləri məhv edə biləcək yeni peyk hazırlayır.

Sözügedən peykin inteqrasiya edilmiş lazer vasitəsilə nasaz texniki obyektləri, həmçinin başqa zəhərli materialları şüalandıracağı qeyd edilir. Bundan sonra kosmik zibil atmosferə tullanılacaq.

Yeni ixtira haqqında hələ ki, heç nə məlum deyil. Ancaq alimlər 3 ildən sonra peykin ilk texniki sınaqdan keçə biləcəyinə inanırlar.

Onların sözlərinə görə, kosmik zibil mövzusu ciddi narahatçılıq doğurur. Artıq ölçüsü 10 santimetrdən çox olan təxminən 20 min obyekt mövcuddur.

### Yadigar söz

**Spinoza**
*(filosof)*

***İnsanın mahiyyəti onun arzularında təzahür edir.***

## Bakı və Abşeron üzrə namaz vaxtları ( İyul - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:27 | 05: 14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## "Twitter"də səsli mesajlar yazmaq imkanı əlçatan olacaq



"Twitter" mikrobloqlar xidməti öz rəsmi hesabında səsli tvitlərin əlçatan olması haqda məlumat verib.

Artıq xidmətin istifadəçiləri səsli mesajlar yazmaq imkanına malikdirlər. Hələ ki yenilik yalnız "iOS" platformasının idarəetməsi altında işləyən qurğular üçün əlçatandır.

Səsli mesajın müddəti 140 saniyəyədək ola bilər. Bu limit həddini keçdikdə səsli mesaj bir neçə səsli tvitə bölünəcək.

Məlumata görə, səsli mesajlar tədricən başqa platformalarda da əlçatan olacaq.

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Dövlət qeydiyyatına alınmış dini qurum**

**"Göyçay rayonu Qarabaqqal kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 may 2020-ci il

Qeydiyyat №-si: 100120A –923

Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Göyçay rayonu, Qarabaqqal kənd məscidi

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Əliyev Teymur Rasim

**Ləğv olunmuş dini qurum**

**"Masallı rayonu, Hişkədərə kənd "İmamzadə" ziyarətgahı**

Qeydiyyat tarixi: 29.09.2003-cü il

Qeydiyyat №-si: 211

Masallı rayonu, Hişkədərə kənd "İmamzadə" ziyarətgahı təsisçilərinin 27 fevral 2020-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 mart 2020-ci ildə qeydə alınıb.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894